# ƏBƏDİ QƏHRƏMANLIQ DASTANI

20 Yanvar şəhidlərinin xatirəsi Azərbaycan xalqı tərəfindən daim ehtiramla yad edilir. Şəhidlər Xiyabanı müqəddəs ziyarətgaha çevrilib.

Müasir Azərbaycan tarixində 20 Yanvar hadisələri həm ümummilli faciə, həm də qəhrəmanlıq salnaməsi kimi xüsusi yer tutur. Bu tarix xalqımızın azadlıq, müstəqillik uğrunda apardığı mübarizənin simvolu kimi də qəbul olunur. 1990-cı ilin həmin qanlı və soyuq yanvar gecəsində son nəfəsini verməkdə olan sovet imperiyası xalqımızın milli azadlıq ruhunu boğmaq istəsə də, tamam əks-nəticə ilə üzləşdi.

SƏHİFƏ 4-də




‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

17 YANVAR ŞƏNBƏ 2026 № 02 (4253) Qiyməti - 60 qəpik www.kaspi.az






## SOCAR AVSTRİYA VƏ ALMANİYAYA QAZ TƏDARÜKÜNƏ BAŞLAYIB

Azərbaycanın qaz ixracında növbəti mühüm mərhələ başlayıb. Bu ildən başlayaraq yeni ixrac ünvanları müəyyənləşdirilib. Artıq SOCAR Azərbaycan qazının Avstriya və Almaniyaya tədarükünə start verib.

SƏHİFƏ 2-də



## AQRAR SAHƏ ÜÇÜN YOL XƏRİTƏSİ

Aqrar sahədə iqlim riskləri, xəstəliklər və resurs israfı fonunda süni intellekt modulları əsas ümidlərdən biri kimi təqdim olunur. Lakin ekspertlər texnologiya ilə yanaşı, kadr hazırlığı və institusional islahatların da vacibliyini vurğulayırlar.

SƏHİFƏ 12-də




## KOMMERSİYA İLƏ DƏYƏRLƏR ARASINDA İNCƏ XƏTT

Kommersiya maraqları şirkətləri hər yolla pul qazanmağa sövq edir. Son vaxtlar satışa çıxarılan hamam aksesuarları, corab və digər geyim əşyalarının üzərində əks olunan təsvirlər bəzən ictimaiyyət tərəfindən ciddi narazılıqla qarşılanır.

SƏHİFƏ 6-da

# ZƏFƏRİN CANLI MƏNZƏRƏSİ



Prezident İlham Əliyev hər bir kənddə, qəsəbədə görülən işlər, yaradılan şəraitlə şəxsən tanış olur. O, işğaldan azad edilən ərazilərə qayıdan sakinlərin qayğılarını, istəklərini diqqətlə dinləyərək müvafiq göstərişlərini verir.

**BÖYÜK QAYIDIŞIN BUDƏFƏKİ ÜNVANI**

Böyük Qayıdışın budəfəki ünvanı Ağdərə oldu. 2023-cü ildə antiterror əməliyyatlarından sonra azad edilən bu ərazilərdə qısa müddətdə 10-a yaxın kənd bərpa edilib. Keçmiş məcburi köçkünlərin layiqli şəkildə geri dönüşünü reallaşdırmaq üçün yenidənqurma işləri həyata keçirilib.

**SİYASİ İRADƏNİN, ƏZMİN GÖSTƏRİCİSİ**

2026-cı ildə işğaldan azad edilmiş ərazilərə ilk səfər Prezidentin vətəndaşına, şəhidinə, qazisinə nə dərəcədə sahib çıxdığını bütün dünyaya bir daha nümayiş etdirdi. Ağdərənin timsalında dövlətimiz tək ərazisini, təbii ehtiyatlarını özünə qaytarmadı.

SƏHİFƏ 3-də

“Məqsəd pasiyent təhlükəsizliyini qorumaqdır”

## TİBB BACILARINA BİRMƏNALI QARŞILANMAYAN QADAĞA



Tibb bacılarının evdə inyeksiya vurmasına qoyulan qadağa cəmiyyətdə müzakirələrə səbəb olub. TƏBİB-in açıqlamasına görə, venadaxili inyeksiya və digər tibbi prosedurlar yalnız rəsmi tibb məntəqələrində və həkim nəzarəti altında həyata keçirilməlidir. Məqsəd pasiyent təhlükəsizliyini təmin etmək olsa da, yataq xəstələri, hərəkət qabiliyyəti məhdud şəxslər üçün bu qadağa problemlər yaradır.

SƏHİFƏ 13-də



## YAXIN ŞƏRQDƏ YENİ HƏRBİ İTTİFAQ

Türkiyənin iştirakı ilə təhlükəsizlik ittifaqının yaradılması Yaxın Şərq bölgəsi və onun hüdudlarından kənarda qüvvələr nisbətini dəyişə bilər. Əgər ittifaq qurulsa, digər müsəlman dövlətlərinin də oraya qoşulması realdır.

SƏHİFƏ 5-də



## ZƏRGƏRLİK BAZARINDA YENİ TENDENSİYA

İsveçrə qızılı yüksək saflığı ilə tanınır. Türkiyə və BƏƏ qızılı dizayn müxtəlifliyi və zərgərlik məmulatlarının geniş çeşidi ilə seçilir. İtaliya qızılı isə incə işlənməsi, zərif dizaynı və premium seqmentdə tanınması ilə fərqlənir.

SƏHİFƏ 14-də



## “ŞƏRƏF DƏHLİZİ”NDƏN ÇIXIŞ QAPISINA

“Real Madrid”də əvvəllər də bir çox məşqçini “yeyən” sistem bu dəfə daha prinsipial məşqçini sıradan çıxardı. Komandanın futbolçuları sosial şəbəkələrdə onları tərk etmiş baş məşqçiyə təşəkkür edə bilərlər, amma bu, həqiqəti dəyişmir.

SƏHİFƏ 16-da



Müzakirə fürsəti var – istifadə edən olacaqmı?

SƏHİFƏ 8-də



Genişzolaqlı internetin orta sürəti artıb

SƏHİFƏ 10-da



Kərə yağı bazarında paradoks

SƏHİFƏ 7-də



Yerli ayaqqabı istehsalında statistik artım

SƏHİFƏ 11-də



2026-cı ilin maliyyə sınağından necə keçməli?

SƏHİFƏ 9-da

# SOCAR AVSTRİYA VƏ ALMANİYAYA QAZ TƏDARÜKÜNƏ BAŞLAYIB



Azərbaycanın qaz ixracında növbəti mühüm mərhələ başlayıb. Bu ildən başlayaraq yeni ixrac ünvanları müəyyənləşdirilib. Artıq Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Azərbaycan qazının Avstriya və Almaniyaya tədarükünə start verib.

F.ABASOĞLU

Avropanın enerji təhlükəsizliyi, xüsusilə də qaz təminatında Azərbaycanın rolu ildən-ilə artır. Belə ki, qaz ixracının coğrafiyasının genişləndirilməsi istiqamətində qarşı tərəflərin istəyi ilə aparılan danışıqlar fonunda bu ildən başlayaraq yeni ixrac ünvanları müəyyənləşdirilib.

### AZƏRBAYCAN QAZINI ALAN ÖLKƏLƏRİN SAYI 16-YA ÇATIB

Son məlumatlara görə, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Azərbaycan qazının Avstriya və Almaniyaya tədarükünə başlayıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib. Bildirilib ki, SOCAR Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə nəql edilən əhəmiyyətli həcmdə qazın Cənubi və Mərkəzi Avropa bazarlarına satışını həyata keçirərək, Azərbaycanın qaz ixracında növbəti mühüm mərhələyə başlayıb.

Belə ki, 2026-cı ilin yanvar ayından etibarən Azərbaycan qazı digər ölkələrlə yanaşı, Avstriya və Almaniyadan olan alıcılara da təchiz edilir. İtaliya üzərindən Avstriya və Almaniyaya həyata keçirilən qaz təchizatı Azərbaycan qazının Avropadakı coğrafi əhatəsini daha da genişləndirir. Beləliklə, Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb.

### QAZ MARKETİNQİ FƏALİYYƏTİ DAVAMLI ŞƏKİLDƏ GENİŞLƏNDİRİLİR

SOCAR Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılmış qaz strategiyasına uyğun olaraq, Avropa və Yaxın Şərq regionlarında qaz marketinqi fəaliyyətini davamlı şəkildə genişləndirir, müxtəlif ölkələrdən olan alıcılarla əməkdaşlıq portfelini artırır və Azərbaycanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da möhkəmləndirir.

Xatırladaq ki, Avstriya və Almaniya ilə yanaşı, Avropa istiqamətində tədarük edilən ölkələr sırasında İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Slovakiya, Şimali Makedoniya və Ukrayna yer alır. Bundan əlavə, Azərbaycan qazı Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyəyə, oradan isə Türkiyənin daxili boru kəmərləri ilə Suriyaya, eləcə də Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə Gürcüstana nəql olunur.

## ALMANİYA VƏ AVSTRİYA İLƏ İMZALANAN MÜQAVİLƏLƏR

2025-ci ildə Almaniya təbii qazı əsasən Norveçdən, ABŞ-dən (LNG), eləcə də Belçika və Rusiyadan (Aİ ölkələri üzərindən) idxal edib. Avstriya isə ötən il qaz tədarükünü əsasən Almaniya və İtaliya vasitəsilə həyata keçirib.

Ötən ilin iyun ayında SOCAR ilə Almaniyanın dövlət enerji şirkəti SEFE (Securing Energy for Europe) arasında 10 illik qaz alqı-satqısı müqaviləsi imzalanıb. Bu sənədə əsasən, SOCAR Avropada SEFE-yə qaz tədarük edəcək. İllik tədarük həcmi mərhələli şəkildə artırılaraq 15 teravatt/saatadək (təxminən 1,5 milyard kubmetr) çatdırılacaq. Müqavilə hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaların cəlb olunmasını nəzərdə tutur və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verəcək.

Eyni zamanda, SOCAR 2024-cü ildə Avstriyanın "Geoplin" şirkəti ilə Azərbaycan qazının tədarükü üzrə ilk müqaviləni imzalayıb.

### BU ÖLKƏLƏRƏ NEFT DƏ SATIRIQ

Qeyd edək ki, Azərbaycanın bu iki ölkənin enerji təhlükəsizliyinin təminindəki rolu tək qaz ixracı ilə məhdudlaşmır. Ötən ilin yanvar-noyabr aylarında Almaniya Azərbaycandan 502 milyon ABŞ dollarından çox dəyərində 956,7 min ton xam neft idxal edib. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 21 %, həcm baxımından isə 4,5 % azdır.

Eyni dövrdə Azərbaycan Avstriyaya 177,5 min ton xam neft ixrac edib ki, bu da əvvəlki ilin 11 ayı ilə müqayisədə 2,1 dəfə çoxdur. Avstriyaya ixrac edilən neftin dəyəri isə 1,8 dəfə artaraq 87,9 milyon ABŞ dollarına çatıb.

### QARŞILIQLI TİCARƏT DÖVRİYYƏLƏRİ

Ümumilikdə, 2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsi 1 milyard 298 milyon ABŞ dolları təşkil edib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9 % azdır və Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 2,91 %-nə bərabərdir. Hesabat dövründə Azərbaycandan Almaniyaya ixrac 20,3 % azalaraq 543,7 milyon ABŞ dolları, Almaniyadan idxal isə 1,4 % artaraq 754,7 milyon ABŞ dolları olub.

Azərbaycan-Avstriya ticarət əlaqələri isə əksinə, artım nümayiş etdirib. Belə ki, ötən ilin yanvar-noyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi 219,4 milyon ABŞ dolları təşkil edib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 1,7 dəfə çoxdur. Bu göstərici Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 0,49 %-nə bərabərdir. Həmin dövrdə Azərbaycandan Avstriyaya ixrac 1,8 dəfə artaraq 89,5 milyon ABŞ dolları, Avstriyadan idxal isə 1,6 dəfə artaraq 130 milyon ABŞ dolları olub.




## TAP-IN ÖTÜRÜCÜLÜK QABİLİYYƏTİ 12 MİLYARD KUBMETRƏ ÇATIB

Hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP-ın ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetrə çatıb.

TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Kəmərin ümumi uzunluğu 878 km-dir ki, bunun da 550 km-i Yunanıstanın şimal hissəsindən, 215 km-i Albaniya ərazisindən, 105 km-i Adriatik dənizinin dibi ilə, 8 km-i isə İtaliya ərazisindən keçir.

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb.

Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql olunur. Təbii qaz həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum) və TANAP vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı-Tbilisi-Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.

# ZƏFƏRİN CANLI MƏNZƏRƏSİ



Prezident İlham Əliyev hər bir kənddə, qəsəbədə görülən işlər, yaradılan şəraitlə şəxsən tanış olur. O, işğaldan azad edilən ərazilərə qayıdan sakinlərin qayğılarını, istəklərini diqqətlə dinləyərək müvafiq göstərişlərini verir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev yeni ilin ilk günlərində növbəti dəfə işğaldan azad edilmiş ərazilərə səfər edərək sakinlərlə görüşdü, bir sıra açılışlarda iştirak etdi. Dövlət başçısının yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü bir çox təsirli məqamla yadda qaldı.

### BU DƏFƏ DƏ İSTİSNA OLMADI

Böyük Qayıdışın budəfəki ünvanı Ağdərə rayonu oldu. 2023-cü ildə antiterror əməliyyatlarından sonra azad edilən bu ərazilərdə qısa müddətdə 10-a yaxın kənd bərpa edilib. Keçmiş məcburi köçkünlərin layiqli şəkildə geri dönüşünü reallaşdırmaq üçün yenidənqurma işləri həyata keçirilib. Ən diqqət çəkən məqam təbii ki, bu prosesin dövlət başçısının birbaşa iştirakı və nəzarəti altında reallaşmasıdır.

Prezident İlham Əliyev hər bir kənddə, qəsəbədə görülən işlər, yaradılan şəraitlə şəxsən tanış olur, köç edən sakinlərin ailələrinə baş çəkərək onların qayğılarını, istəklərini diqqətlə dinləyərək müvafiq göstərişlərini verir. Bu dəfə də istisna olmadı. Hər bir kənddə sakinlərin evlərində yaradılan şəraitlə tanış olan dövlət başçısının səmimiyyəti Azərbaycanın dövlət siyasətinin əsasında məhz vətəndaş məmnunluğu və insan amilinin ön planda olduğunu bir daha bütün dünyaya göstərmiş oldu.

### ŞƏHİD ANASI İLƏ SƏMİMİ DİALOQ

Dörd kəndin sakinləri ilə görüşdə Azərbaycan Prezidentinin şəhid ailəsi olan qadın sakinlə dialoqu xüsusi ilə diqqəti cəlb etdi.

"Mən Ağdərənin Çapar kəndindənəm. Mən şəhidin anasıyam, bir şəhidin də bacısıyam. Bu gün mənim yanımda ikinci bir oğlum yoxdur. Azərbaycanın qeyrətli oğlanları mənim oğlumdur. Oğlum məni Sizə əmanət edib. Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm", - deyən şəhid anasının bu sözləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin yaxınlarının Müzəffər Ali Baş Komandana, Prezident İlham Əliyevə olan səmimi və içdən gələn duyğularının ifadəsi kimi qəbul edilməlidir. Bu gün Azərbaycan Ordusunun hər bir üzvü Ali Baş Komandana inanır, müqəddəs borcunu yerinə yetirərkən şəhid olsa belə, ailəsinin, yaxınlarının əmin əllərdə olduğunu bilir. Çünki onların dayağı bu gün Azərbaycan cəmiyyətində, xalqında birliyi, həmrəyliyi, vahidliyi təmin edən, gücünü xalqından alan Prezident İlham Əliyevdir.

## "BİZ ONLARI QORUDUQ, ONLARI QURBAN VERMƏDİK"

Bu gün şəhid anası, şəhid atası və yaxınları Azərbaycan Prezidentini öz doğma yurdlarında qürurla qarşılayırlar. Qalib əsgərin, qalib dövlətin vətəndaşları olaraq Prezidentə inanır, onunla görüşlərdə bunu dilə gətirirlər. Qəhrəman şəhidlərimizin Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri də ən ali səviyyədə yüksək dəyərləndirilir, yad edilir və xatırlanır. Müzəffər Ali Baş Komandanın da vurğuladığı kimi, onların qanı, canı bahasına, qəhrəman döyüşçülərimizin şücaəti, rəşadəti hesabına biz bu gün işğaldan azad edilmiş torpaqlardayıq. "Biz şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanını artıq biz döyüş meydanında aldıq. Onların qanı yerdə qalmayıb. İşğal dövründə dəfələrlə bu sözləri biz eşitmişik, işlətmişik və bu arzularla yaşamışıq. Çünki torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı. Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq. Son



80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində. Biz şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq. Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən, bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq. İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın", - deyə Prezident bildirib.

### SİYASİ İRADƏNİN, ƏZMİN GÖSTƏRİCİSİ

Bəli, 2026-cı ildə işğaldan azad edilmiş ərazilərə ilk səfər Azərbaycan dövlətinin, Prezidentinin vətəndaşına, şəhidinə, qazisinə nə dərəcədə sahib çıxdığını, Qarabağı cənnətə çevirmək üçün hansı iradənin ortaya qoyulduğunu bütün dünyaya bir daha nümayiş etdirdi. Ağdərənin timsalında dövlətimiz tək ərazisini, təbii ehtiyatlarını özünə qaytarmadı. Həm də qısa müddət ərzində milli mənliyini, qürurunu bərpa etdi. Bu gün Azərbaycan Prezidentinin bir tərəfində şəhid anası, digər tərəfində isə 30 illik vətən həsrəti çəkən ağbirçək qadının dayanması cəmiyyətimizdəki birliyin, bərabərliyin, məğlubedilməzliyin və İlham Əliyevin timsalında güclü siyasi iradənin, əzmin göstəricisidir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



RASİM MƏZAHİROĞLU

# ƏBƏDİ QƏHRƏMANLIQ DASTANI

Müasir Azərbaycan tarixində 20 Yanvar hadisələri həm ümummilli faciə, həm də qəhrəmanlıq salnaməsi kimi xüsusi yer tutur. Təsadüfi deyil ki, bu tarix xalqımızın azadlıq, müstəqillik uğrunda apardığı mübarizənin simvolu kimi də qəbul olunur. 1990-cı ilin həmin qanlı və soyuq yanvar gecəsində son nəfəsini verməkdə olan sovet imperiyası xalqımızın milli azadlıq ruhunu boğmaq istəsə də, tamam əks nəticə ilə üzləşdi. Məhz bu hadisə imperiyanın dayaqlarını daha sürətlə laxlatdı, onun iç üzünü, göz qırpmadan dinc vətəndaşları güllə-boran etməyə hazır olduğunu bir daha nümayiş etdirdi.

## DÜNYAYA CAR ÇƏKİLƏN AZADLIQ EŞQİ

35 il öncə Sovet ordusu dinc əhaliyə qarşı misli görünməmiş qəddarlıq nümayiş etdirdi. Haqq səsini ucaldan, azadlıq eşqi ilə meydanlara çıxan insanlar güllə yağmuruna tutuldu. Qadınlara, uşaqlara, yaşlılara belə mərhəmət edilmədi, 131 insan şəhid oldu, 744 nəfər yaralandı, 841 şəxs qanunsuz həbsə atıldı. Sonradan aparılan araşdırmalar nəticəsinə o da bəlli oldu ki, Sovet ordusunun xüsusi təyinatlı dəstələri və daxili qoşunların kontingenti faciə zamanı 200 evə, 80 avtomobilə, hətta təcili yardım maşınlarına da atəş açmaqdan çəkinməyiblər. Bu, sovet rejiminin Azərbaycan xalqına qarşı törətdiyi açıq cinayət idi. Lakin 20 Yanvar təkcə qanlı bir cinayət kimi tarixə həkk olunmadı, eyni zamanda böyük qəhrəmanlıq nümunəsi kimi yaddaşlara hopdu.

Azərbaycan xalqı tankların, silahların qarşısına əliyalın çıxaraq, öz azadlıq iradəsini bütün dünyaya nümayiş etdirdi. Məhz şəhidlərimizin göstərdiyi fədakarlıq müstəqil Azərbaycan dövlətinin təməl daşlarından birinə çevrildi. Əli Azərbaycan xalqının, ilk növbədə günahsız insanların qanına bulaşan sovet rəhbərliyi faciəni gizlətməyə çalışsa da, buna nail ola bilmədi. Xüsusən də 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyevin ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskva şəhərindəki nümayəndəliyinə gələrək sovet ordusunun dinc əhaliyə divan tutmasını kəskin şəkildə pisləməsi, həyati təhlükə ilə üzləşməsinə baxmayaraq, ittifaq rəhbərliyinə qarşı açıq etirazını bildirməsi, kimliyindən asılı olmayaraq, faciəni törədənlərin cinayət məsuliyyətinə cəlb olunmasını tələb etməsi 20 Yanvar hadisələrindən, bununla bağlı həqiqətlərdən dünyanın vaxtında xəbər tutmasında müstəsna rol oynadı.

## FACİƏYƏ GEDƏN YOLUN BAŞLANĞICI

20 Yanvar hadisələri Azərbaycan ərazilərinə qəsd kontekstində, Qarabağ münaqişəsi fonunda baş verdi. Ermənilərin marionetinə çevrilən, onların Azərbaycana qarşı qəsdinə xeyir-dua verən Mixail Qorbaçovun özünə rəqib kimi gördüyü, Ulu Öndər Heydər Əliyevə qarşı qısqanclığı təkcə Azərbaycan ərazilərinin işğalına yox, həm də Qara Yanvara gedən yolun başlanğıcı oldu. Heydər Əliyev SSRİ rəhbərliyindən istefa verdikdən sonra Azərbaycana qarşı hücumlar intensivləşdi.

**20 Yanvar şəhidlərinin xatirəsi Azərbaycan xalqı tərəfindən daim ehtiramla yad edilir. Şəhidlər Xiyabanı müqəddəs ziyarətgaha çevrilib. Burada uyuyan şəhidlərin ruhları isə indi əbədi sakitliklərinə qovuşublar.**

## MÜSTƏQİLLİYƏ GEDƏN YOL DÖNMƏZ XARAKTER ALDI

Xalqımızın haqq səsini ucaltması, ədalətsizliyə, Qarabağda aparılan separatçı siyasətə və mərkəzi hakimiyyətin biganəliyinə qarşı etirazı sovet rəhbərliyini qorxuya saldı. Yüksələn milli ruhu boğmaq üçün Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizliyi Komitəsinin və Daxili İşlər Nazirliyinin bölmələri Bakı şəhəri də daxil olmaqla Azərbaycanın bir sıra rayonlarına yeridildi, ağır texnika və müxtəlif növ silahlarla dinc sakinlər qətl edildi, ötən əsrin ən dəhşətli faciələrindən birinə imza atıldı. Həmin dövrdə xalqı düzgün istiqamətə yönəldəcək rəhbərin, siyasi qüvvələrin yoxluğu da qətliamın yaşanmasında az rol oynamadı. Amma baş verənlər Azərbaycan xalqının iradəsinə hakim ola bilmədi, əksinə, onun siyasi özünüdərkinin, milli məfkurəsinin inkişafına təkan verdi, sovet imperiyası isə Azərbaycanda bütün dayaqlarını itirdi, ölkəmizdə müstəqilliyə gedən yol dönməz xarakter aldı. Bu səbəbdən 20 Yanvar hadisələri həm də bir şərəf, real qəhrəmanlıq dastanıdır.

## ŞƏHİDLƏRİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCAN

Bu faciəyə ilk siyasi-hüquqi qiymətin verilməsi Azərbaycanın müstəqilliyi dövrünə təsadüf etdi, onun müəllifi isə Ümummilli Lider Heydər Əliyev oldu. Məhz onun təşəbbüsü ilə 1994-cü il martın 29-da 20 Yanvar faciəsinə Milli Məclis səviyyəsində ilk dəfə siyasi-hüquqi qiymət verildi. Həmin vaxt Azərbaycan parlamentinin qəbul etdiyi müvafiq qərarda faciənin günahkarları konkret şəkildə qeyd olundu. Növbəti mühüm addımlar şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, 20 Yanvarın Ümumxalq Hüzn Günü elan edilməsi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksinin ucaldılması, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi oldu. 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi məqsədilə Ulu Öndər Heydər Əliyev tərəfindən fərman verildi. Onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin çözümünə hər zaman xüsusi diqqət edir.

20 Yanvar şəhidlərinin xatirəsi Azərbaycan xalqı tərəfindən daim ehtiramla yad edilir. Şəhidlər Xiyabanı müqəddəs ziyarətgaha çevrilib. Burada uyuyan şəhidlərin ruhları isə indi öz əbədi sakitliklərinə qovuşublar. Çünki onların uğrunda mübarizə apardıqları Azərbaycan azaddır, müstəqildir, ərazi bütövlüyünü bərpa edib, hamı tərəfindən hörmət edilən bir ölkəyə çevrilib. 20 Yanvar şəhidlərinin xatirəsi isə həmişə qəlblərdə yaşayacaq və Azərbaycan xalqının azadlıq yolunda sarsılmaz iradəsinin simvolu olaraq qalacaq.



# YAXIN ŞƏRQDƏ YENİ HƏRBİ İTTİFAQ

NATO üzvü olan Türkiyənin iştirakı ilə təhlükəsizlik ittifaqının yaradılması Yaxın Şərq bölgəsi və onun hüdudlarından kənarda qüvvələr nisbətini dəyişə bilər. Əgər ittifaq qurulsa, digər müsəlman dövlətlərinin də oraya qoşulması realdır.



AZƏR NURİYEV



Yaxın Şərqdə regional güc balansını dəyişə biləcək hərbi-siyasi ittifaq reallaşa bilər. "Müsəlman NATO"su kimi qeyd olunan Səudiyyə Ərəbistanı-Pakistan alyansı və bu ittifaqa Ankaranın qoşulması məsələsi dünyanın diqqət mərkəzindədir. Mediada yer alan məlumatlara görə, Ankara artıq mümkün ittifaqa qoşulmaq üçün danışıqları sürətləndirib. İddialara görə, ittifaq Səudiyyə Ərəbistanının maliyyə gücünü, Pakistanın müdafiə imkanlarını və ballistik raket infrastrukturlarını, Türkiyənin isə güclü ordusu və inkişaf edən müdafiə sənayesini birləşdirəcək. "Bloomberg"in xəbərinə görə, genişlənmənin təşəbbüskarı Pakistandır. Anonim qalmaq istəyən rəsmilərə görə, üç dövlət arasında danışıqlarda irəliləyiş əldə edilib və sazişin bağlanması ehtimalı çoxdur.

Beləliklə, NATO üzvü olan Türkiyənin iştirakı ilə təhlükəsizlik ittifaqının yaradılması Yaxın Şərq bölgəsi və onun hüdudlarından kənarda qüvvələr nisbətini dəyişə bilər. Əgər ittifaq qurulsa, digər müsəlman dövlətlərinin də oraya qoşulması realdır. Lakin ekspertlər bu ittifaqın bölgədəki güc balansını dəyişdirə biləcəyi ilə yanaşı, Təl-Əviv üçün ciddi bir əndişə təsiri yaradacağını iddia edirlər. İsrail mətbuatı artıq ittifaqın Təl-Əviv üçün təhlükə olduğunu və ABŞ-nin bölgədəki nüfuzuna təsir edə biləcəyini qeyd edib. "Müsəlman NATO"su anlayışına gəldikdə, bu termin ilk dəfə 2017-ci ildə gündəmə gəlib.




## ONİLLİKLƏRDİR DAVAM EDƏN SIX TƏRƏFDAŞLIQ

Səudiyyə Ərəbistanı və Pakistanı onilliklərdir təhlükəsizlik sahəsində sıx tərəfdaşlıq bağlayır. 1960-cı illərdən bəri neft monarxiyası İndoneziyadan sonra dünyada ikinci ən böyük müsəlman əhaliyə sahib olan ölkəyə milyardlarla vəsait yatırıb. Bu səxavətli dəstək olmadan, xüsusilə də Qərb sanksiyaları zamanı, Pakistan çətin ki, indi müqəddəs yerlərin üzərində də görünə biləcək nüvə qalxanını yarada bilərdi. Ər-Riyad bu bombaya həmişə böyük maraq göstərib. Bununla belə, Səudiyyə Ərəbistanı və Pakistan arasında münasibətlər heç də həmişə münaqişəsiz olmayıb. Səudiyyə Ərəbistanı və İran arasında məzhəb düşmənçiliyinin pik nöqtəsində İslamabad özünü münaqişəyə cəlb etdirməməyi bacardığı üçün kral ailəsini çox qəzəbləndirib. İslamabad Tehranla əlaqələri pozmaq istəməyib, çünki onunla uzun və narahat sərhədi var.



### 5-Cİ MADDƏNİN EYNİSİ

Qeyd edək ki, Səudiyyə Ərəbistanı və Pakistan arasında ötən ilin sentyabrında ikitərəfli ittifaq yaradılması barədə müqavilə imzalanıb. Orada deyilir: "İttifaqın bir üzvünə qarşı təcavüz hamıya qarşı təcavüz kimi qiymətləndirilir". Bu, Şimali Atlantika Alyansı müqaviləsinin 5-ci maddəsinin eynisidir. Pakistanla Səudiyyə Ərəbistanı arasında hərbi əməkdaşlıq zəif olsa da, Ankara haqqında bunu demək olmaz. Türkiyə-Pakistan hərbi əməkdaşlığı artıq möhkəm təmələ malikdir: Türkiyə Pakistan donanması üçün korvet sinfi döyüş gəmilərinin tikintisini, "F-16"-ların modernləşdirilməsini və pilotsuz uçuş aparatları layihələrini həyata keçirib. Yeni pakt Türkiyənin də maraqlarına cavab verir. Məsələ ondadır ki, Prezident Donald Trampın çıxışları müttəfiqlərdə NATO üzvlərinə qarşı ABŞ-nin öhdəliklərinin etibarlılığına şübhə yaradıb. Bu səbəbdən Türkiyə öz təhlükəsizliyini gücləndirmək üçün başqa yol axtarmalı olur.

## "HƏR BİR İŞTİRAKÇI ÜMUMİ İŞƏ ÖZ TÖHFƏSİNİ VERƏCƏK"

Ankaradakı tədqiqat mərkəzinin strategiya üzrə mütəxəssisi Nihat Ali Özkan deyir ki, paktın hər bir iştirakçısı ümumi işə öz töhfəsini verəcək: Səudiyyə Ərəbistanı - maliyyə gücünü, Pakistan - nüvə silahının tətbiqi imkanını, ballistik raketləri və böyük insan ehtiyatına sahib olmasını, Türkiyə isə döyüş təcrübəsi olan silahlı qüvvələri və inkişaf etmiş hərbi sənayesini.

Türkiyə alyansa qoşulmaq haqqında müqaviləni imzalayarsa, bu, onun keçmiş rəqibi olan Səudiyyə Ərəbistanı ilə münasibətlərində yeni bir dövrün başlanğıcını qoyacaq. Bu gün hər iki dövlət mübahisələrə son qoymaq və əməkdaşlığı genişləndirmək istəyir.

Qərb ekspertləri hesab edir ki, üçtərəfli pakt haqqında müzakirələr hələ məsləhətləşmə xarakteri daşıyır. Türkiyənin ona qoşulmaq qərarının qəti olması haqqında danışmaq tezdir. Ankara daha çox türkdilli dünyada öz təsirini gücləndirməkdə maraqlıdır.

Müstəqil ekspertlər isə hesab edir ki, Pakistan həm Səudiyyə Ərəbistanı ilə ikitərəfli paktda, həm də mümkün üçtərəfli formatda tərəfdaşlara nüvə silahlarını ötürməyəcək. Onların qənaətincə, Pakistanın hərbi doktrinası nüvə aktivlərinin hər hansı üçüncü tərəfə ötürülməsini nəzərdə tutmur. İslamabadda belə bir addımın ölkə üçün fəlakətli nəticələri ola biləcəyini dərk edirlər. Bu addım həm ABŞ, həm də Çin tərəfindən pislənəcək. Lakin üçtərəfli paktın təşəbbüskarı məhz Pakistan olub. Onun əsas motivi - Hindistanla yeni silahlı münaqişə halında Türkiyə və Səudiyyə Ərəbistanının dəstəyinə güvənməkdir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# KOMMERSİYA İLƏ DƏYƏRLƏR ARASINDA İNCƏ XƏTT

Müasir dünyanın kommersiya maraqları istehsalçı şirkətləri hər yolla pul qazanmağa sövq edir. Son vaxtlar satışa çıxarılan hamam aksesuarları, corab və digər geyim əşyaları, ayaqaltılar kimi məişət məhsulları üzərində əks olunan təsvirlər bəzən ictimaiyyət tərəfindən ciddi narazılıqla qarşılanır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Sovet dövründə istehsal müəssisələri sini, şokolad qutuları və s. aksesuarların üzərində məşhur müğənni, aktyor və ya idmançıların fotolarını çap edəndə bu, cəmiyyətdə birmənalı qarşılanmırdı. Kütləvi bazara hesablanan məhsullar sürətlə satılsa da, "belə fotolar məşhuru ucuzlaşdırır" kimi subyektiv iradlar səslənirdi. Bu baxımdan, satışa çıxarılan məhsulların üzərində yer alan təsvirlər həmişə həssas məsələ olub.

İndi zaman dəyişib, onlayn platformalar üzərindən alış-veriş xeyli populyarlaşıb. Texnoloji inkişaf məhsullar üzərində yer alan məzmuna da dəyişiklik gətirib. Müasir dünyanın kommersiya maraqları istehsalçı şirkətləri hər yolla pul qazanmağa sövq edir. Məsələn, son vaxtlar "Temu"da satışa çıxarılan bəzi məhsullar - hamam aksesuarları, corab və digər geyim əşyaları, ayaqaltılar kimi məişət məhsulları üzərində əks olunan təsvirlər bəzən ictimaiyyət tərəfindən ciddi narazılıqla qarşılanır. Sosial platformalarda milli rəmzlərin kommersiya məqsədilə istifadəsi milli-mənəvi dəyərlərə və tarixi yaddaşa hörmətsizlik kimi qiymətləndirilir. Bu cür faktlar ölkədə məhsul təhlükəsizliyi ilə bağlı tənzimləmələri yenidən gündəmə gətirir. Şirkətlər, iş adamları istehsalda hansı məqamlara diqqət etməlidirlər ki, ictimaiyyətin narazılığına səbəb olan məhsullar satış platformalarına yol tapmasın?

### "MƏHSUL ARTIQ ÖLKƏYƏ DAXİL OLANDA QARŞISI ALINMALIDIR"

Marketoloq Namiq Bayramovun fikrincə, istehsal prosesində milli atribut və rəmzlərin təsvirindən istifadə edən hər bir şirkət və şəxs məsuliyyət daşıyır: "Qlobal şirkətlər hər bir ölkənin atributlarını istifadə edə bilərlər. Əgər dövlət bundan narazıdırsa, etirazını şirkətə bildirə bilər. Dövlət bu məsələdə həssasdırsa, məhsul artıq ölkəyə daxil olanda qarşısı alınmalıdır. Məsələn, belə hallarla bağlı məhkəməyə müraciət etmək olar". Marketoloqun fikrincə, aidiyyəti dövlət orqanlarının vergi ödəyicilərinə məlumatlandırıcı xarakterli məktublar göndərməsi də yaxşı olar: "Hər bir azərbaycanlı bilir ki, atributlara hörmətlə yanaşılmalıdır. Ölkəyə məhsul gətirən adam avtomatik vergi ödəyicisidir. Onun vergi kabinetinə bu mövzuda məktub göndəriləndə, dövlət üzərinə düşəni etmiş olur. Sahibkarlar da bilməlidirlər ki, üzərində sözügedən təsvirlər olan məhsulu gətirsələr, sabah itki ilə üzləşə bilərlər. Məlumatlı olmaq isə vətəndaşın borcudur. Hər bir vətəndaş bilməlidir ki, milli atributları, rəmzləri harada və hansı məqsədlə istifadə və sifariş etmək olar. Sahibkar ilk növbədə diqqət yetirməlidir ki, qanunvericiliklə buna icazə var, ya yox. Reklam istehsal edənlər "Reklam haqqında" qanunu necə nəzərə alırlarsa, istehsalçılar da bu həssaslığı nəzərə almalıdır. Dövlət tərəfindən maarifləmə xoş məram olaraq nəzərdə tutula bilər ki, sahibkar cərimələyə məruz qalıb itki ilə üzləşməsin".






Namiq Bayramov

### "XARİCİ İSTEHSALÇI BUNU BİLMƏSƏ DƏ..."

Hüquqşünas Ruslan Vəliyev məhsulların üzərində təsvirlərin müəyyən edilməsinə və tənzimlənməsinə dair Azərbaycan qanunvericiliyində qaydaların nəzərdə tutulduğunu bildirir: "Dövlət gerbi yalnız dövlət müəssisələrinin üzərində ola bilər. O cümlədən, Azərbaycan bayrağının da konkret olaraq harada dalğalanması ilə bağlı göstərişlər var".

Hüquqşünasın sözlərinə görə, gömrük və sərhəd xidməti orqanları bir məhsulun üzərində Azərbaycan bayrağını gördükdə müsadirə edə bilər: "Vətəndaş çox vaxt qanunda bu icazənin olmadığını bilmir. Xarici istehsalçı bunu bilməsə də, dövlət orqanları bu qaydalara riayət etməlidir. Hesab edirəm ki, hər bir vətəndaş bunu bilməli, elə məhsulu sifariş etməməlidir. Biz adətən hər şeyin həllini dövlətdə görməyə öyrəşmişik, amma öz üzərimizə də məsuliyyət düşür. Sifariş etməyəndə, tələbat olmayanda istehsal olmayacaq".



Ruslan Vəliyev

## "İNSANLAR QAYDALARI BİLSƏ, DÖVLƏTİN QILINCINA EHTİYAC QALMAZ"

R.Vəliyev bildirir ki, milli atributların, simvolların təsviri sırf kommersiya məqsədləri üçün istehsal olunan və ya qeyri-etik bir məhsulun üzərində olarsa, İqtisadiyyat Nazirliyi "bunu istehsal etmə, narazılıq yaradır", - deyə həmin xarici ölkəyə müraciət edə bilər: "O cür qlobal şirkətlər üçün bayrağın məişət aksesuarları üzərində yer alması təbii haldır. Hər dövlət atributlara bizim qədər bağlı deyil. Elə ölkələr var ki, orada insanlar bayraqlarını yerdə çəkirlər və gələn, gedən onu tapdalayır. Amma belə hal bizim üçün qəbulolunmazdır. Digər tərəfdən, onlar bunu satış məqsədi ilə edirlər. Heç sifarişçi şirkətin adını da açıqlamırlar. Əgər ölkəyə qanuna zidd məhsullar gətirilirsə, gömrük onu buraxmır, "qanunsuzdursa, mən müdaxilə edəcəm", - deyə nəzarət edir. Amma hazırda azad sahibkarlıq, azad iqtisadiyyat mövcuddur. Dövlətin o imkanı yoxdur ki, bütün şirkətləri detallı yoxlasın. Dövlətin nəzarət mexanizmi gömrük vasitəsi ilə həyata keçirilir. Biz özümüz də Avropa ölkələrində olduğu kimi hüquq mədəniyyəti göstərməliyik. Hər bir insan bu qaydaları bilsə, dövlətin qılıncına da ehtiyac qalmaz. Ölkəmizdə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun, elektron ticarət, iqtisadiyyat, malların dövriyyəsi ilə bağlı çox sayda qayda var. Həmin qanunvericilik aktlarında malların təsviri və onların yarada biləcəyi hisslərə dair normalar yer alıb. Məsələn, bizdə qanunla faşistlərlə bağlı svastikanı istifadə etmək qadağandır. Eləcə də, hər hansı məhsulun üzərində iblisi təsvir eləmək olmaz. Bu, insanlarda qorxu yarada bilər. İstehsal olunan əşyalar insanlarda mənfi fikir, iztirab yaratmamalı, onları çaşbaş salmamalıdır. Məhsul öz ölkəmizdə istehsal olunarsa, müəyyən reydlər aparıb onu satışdan çıxarmaq olar, amma xaricdə istehsal olunursa, artıq sifariş edən və alan vətəndaş özü fikirləşməlidir. Bu, mənəvi məsələdir".

# KƏRƏ YAĞI BAZARINDA PARADOKS

Rəsmi statistikada kərə yağı istehsalının azalması fonunda ehtiyatların artması qeydə alınıb. Ekspertlər hesab edirlər ki, bu vəziyyət bazarda real bolluqdan çox struktur və satış problemlərini əks etdirir. Qiymətlərin yaxın vaxtlarda enməsi isə gözlənilmir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Son açıqlanan rəsmi statistika kərə yağı bazarında ziddiyyətli mənzərəni ortaya qoyur. Belə ki, ötən ilin yanvar-noyabr aylarında Azərbaycanda 24 min 358,8 ton kərə yağı istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,4 faiz azalma deməkdir. Bununla yanaşı, dekabrın 1-nə sənaye müəssisələrinin anbarlarında 179,6 ton kərə yağı ehtiyatının formalaşdığı bildirilir. İllik müqayisədə 199,6 dəfə artım kimi təqdim olunan bu göstəricilər bazarda real bolluqla bağlı ciddi suallar yaradır. İstehsalın azaldığı bir şəraitdə ehtiyatların bu qədər artması nə ilə izah olunur və bu ehtiyatlar bazara çıxarıldığı halda qiymətlərin ucuzlaşmasına səbəb ola bilərmi?

**"KƏRƏ YAĞI ÜZRƏ YERLİ İSTEHSAL MÖVCUD DEYİL"**

Azərbaycan süd və süd məhsulları istehsalçıları və ixracatçıları assosiasiyasının sədri Samir Eyyubovun sözlərinə görə, Azərbaycanda yerli süd əsasında kərə yağı istehsalı faktiki olaraq çox aşağı səviyyədədir: "Rəsmi statistikada göstərilən "istehsal" rəqəmləri əsasən idxal olunan qaymaqdan emal edilən məhsulların, eləcə də xammal formasında idxal edilən hazır məhsulun ölkə daxilində təkrar qablaşdırılması və ya minimal emalı hesabına formalaşır. Reallıqda kərə yağı üzrə idxaldan asılılıq 90 faizin üzərindədir. Anbarlarda mövcud olan kərə yağının hamısı ya hazır şəkildə idxal edilmiş məhsullardır, ya da xammal formasında xaricdən gətirilərək ölkə daxilində təkrar emal olunmuş məhsullardır".

**"İDXAL QİYMƏTİ 18 FAİZ ARTIB"**

S.Eyyubovun sözlərinə görə, 2025-ci ilin ilk 9 ayın statistikasına nəzər yetirdikdə görünür ki, ölkəyə idxal olunan kərə yağının orta idxal qiyməti 2024-cü illə müqayisədə təxminən 18 faiz artıb. Bu qiymət artımı fonunda aylıq orta idxal həcmlərində təxminən 11 faiz azalma qeydə alınıb: "Bundan əlavə, 2024-cü ildə Rusiyaya 12 min ton kərə yağı ixrac edildiyi halda, 2025-ci ilin ilk 9 ayının göstəricilərinə əsasən, bu rəqəm 2 300 ton səviyyəsinə qədər geriləyib. Nəticədə təkrar emal həcmləri azalıb və bu da statistik "istehsal" göstəricilərinin aşağı düşməsinə səbəb olub. Rusiyaya ixrac həcmlərində baş verən kəskin azalma, yeni əsas satış kanallarından birinin daralması, bazarda balanssızlıq yaradaraq ehtiyatların artması görüntüsünü formalaşdırıb".



Samir Eyyubov

**"QİYMƏTLƏR ENMƏYƏCƏK, ƏKSİNƏ, QALXACAQ"**

Sədr bu prosesin istehsalçılara necə təsir edəcəyindən də bəhs etdi: "Ehtiyatların uzun müddət anbarda saxlanılması istehsalçılar üçün ciddi maliyyə itkisi deməkdir. Bu, məhsulun istifadə müddətinin azalmasına, dövriyyə və likvidlik problemlərinə, nəticə etibarilə isə təkrar maliyyə itkilərinin artmasına səbəb olur. Mövcud ehtiyatlar artıq 2024-cü illə müqayisədə təxminən 18 faiz daha baha olub. Üstəlik, 2026-cı ilin ilk günlərindən etibarən idxal rüsumunun yenidən 15 faizə qaldırılması gözlənilir. Bu amillər qiymətlərin aşağı düşməsinə deyil, əksinə, bazarda ciddi qiymət artımlarına yol aça bilər".

## "Südün maya dəyərinin artması kərə yağının qiymətlərinə təsir edir"

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Cəfər İbrahimli isə təqdim edilən rəqəmlərlə razı deyil: "Ehtimal olunur ki, hesablamalara kərə yağı ilə yanaşı digər yağ məhsulları da daxil edilib, bu da göstəricilər arasında fərqliliyin yaranmasına səbəb ola bilər". C.İbrahimlinin fikrincə, 2025-ci ildə kərə yağının qiyməti əhəmiyyətli dərəcədə yüksəlib: "Paralel olaraq fermalardan südün çıxış qiymətlərində də artım müşahidə olunur ki, bu da əsasən yem xərclərinin və istehsal maya dəyərinin artması ilə bağlıdır. Südün maya dəyərinin artması birbaşa satış qiymətinə, nəticə etibarilə isə kərə yağının qiymətinə təsir göstərib. Mövcud vəziyyətdə yaxın vaxtlarda qiymətlərin enməsi gözlənilmir, çünki tələbat yüksək olaraq qalır".

**"KİFAYƏT QƏDƏR POTENSİAL MÖVCUDDUR"**

Ekspert qiymətlərin aşağı düşməsini yerli istehsalın artırılmasında görür: "Bununla yanaşı, Azərbaycanın kərə yağı istehsalını artırmaq üçün kifayət qədər potensialı mövcuddur. Lakin hazırda fermer təsərrüfatları ilə emal müəssisələri arasında sinxron əməkdaşlıq mexanizmi düzgün qurulmayıb. Bu uyğunsuzluq istehsal zəncirində problemlər yaradır və ölkənin idxaldan asılılığını artırır. Düzgün koordinasiya və dəstək mexanizmləri formalaşarsa, daxili istehsalın artırılması mümkündür və bu da orta müddətdə qiymətlərin stabilləşməsinə şərait yarada bilər".



Cəfər İbrahimli

## "Rəqəmlər satışın zəiflədiyini göstərir"

İqtisadçı-ekspert Günay Hüseynova isə düşünür ki, kərə yağı istehsalının azalması fonunda ehtiyatların artmasının əsas səbəbi idxal olunan alternativ məhsullarla, xüsusilə də marqarin və digər tərkibli yağlarla bağlıdır: "Bu məhsullar qiymət baxımından alıcının büdcəsinə daha uyğun olduğu üçün tələbat əsasən onlara yönəlir. Kərə yağının öz alıcısı olsa da, qiymət səbəbindən tələbat genişlənmir və nəticədə məhsul anbarda qalır. Ehtiyat anbarlarında məhsulun çox olması bazarda real bolluq və ya qiymətlərin avtomatik ucuzlaşacağı anlamına gəlmir. Bazarda bolluqdan yalnız o zaman danışmaq olar ki, məhsula tələbat olsun və onun qiyməti alıcı üçün əlçatan səviyyədə formalaşsın. Bu baxımdan, söhbət istehlakçı üçün deyil, anbar üçün real bolluqdan gedir. Real iqtisadi mühitdə isə bu vəziyyət satışın zəiflədiyini göstərir".



Günay Hüseynova

DƏRSLİK MÜƏLLİFLƏRİNİ SƏFƏRBƏR EDİR VƏ İCTİMAİ MƏSULİYYƏTİ XATIRLADIR

# MÜZAKİRƏ FÜRSƏTİ VAR – İSTİFADƏ EDƏN OLACAQMI?



Elm və Təhsil Nazirliyi dərslik layihələri və metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsinə qərar verib. Elm adamları, təhsil işçiləri, valideynlər, aidiyyəti dövlət qurumları, ictimai birliklərin nümayəndələri və digər maraqlı tərəflər müzakirələrə dəvət olunublar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Elm və Təhsil Nazirliyi tərəfindən 2026–2027-ci tədris ili üçün dərslik layihələri və metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsi planlaşdırılır. Elm adamları, təhsil işçiləri, valideynlər, aidiyyəti dövlət qurumları, ictimai birliklərin nümayəndələri və digər maraqlı tərəflər www.trims.edu.az saytının "İctimai müzakirədə olanlar" bölməsində mərhələli şəkildə yerləşdirilən dərslik komplektlərinin məzmunu ilə tanış ola, xüsusi bölmədə rəy və təkliflərini bildirə bilərlər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirildi ki, hər il ümumi təhsil pilləsinin müvafiq fənləri (aidiyyatı siniflər) üzrə yalnız növbəti tədris ili üçün hazırlanması zəruri hesab edilən dərsliklərin tərtibi sifariş edilir: "Həmin dərsliklərə istifadə hüququ verilmədən öncə onların layihələrinin fənn və dil-üslub üzrə mütəxəssislər tərəfindən qiymətləndirilməsi və nəşrqabağı elmi-metodiki monitorinqi təşkil edilir, eyni zamanda həmin dərslik layihələri ictimaiyyətin müzakirəsinə çıxarılır. Qiymətləndirmə və monitorinq prosesi çərçivəsində, o cümlədən ictimaiyyətdən daxil olan rəy və təkliflər dərsliyi hazırlayan nəşriyyat-poliqrafiya müəssisələrinə təqdim edilir".

## "DƏRSLİKLƏRİN MÜZAKİRƏSİ ALQIŞLANMALIDIR"

Professor Qulu Məhərrəmlinin fikrincə, dərsliklərin müzakirəsi - ictimai ekspertiza alqışlanmalıdır: "Nazirliyin bu yanaşması dərslik müəlliflərini səfərbər edir və ictimai məsuliyyəti xatırladır. Orta məktəb dərslikləri daha böyük məsuliyyət, daha ciddi metodika ilə yazılma, dünya təcrübəsinin, şagirdlərin yaş xüsusiyyətlərini, bilik səviyyələrinin nəzərə alınmasını tələb edir. Ali məktəblər üçün dərsliklərin də özünəməxsus problemləri var".

Q.Məhərrəmlinin fikrincə, müzakirələrdə obyektiv ekspertlərin, sahəni bilən şəxslərin rəyləri mütləq nəzərə alınmalıdır: "Orfoqrafik səhvlər var ki, onlar orta məktəb dərsliklərində qətiyyən olmamalıdır. Belə səhvlər dərsliyi gözdən salır".

## "ƏSAS ODUR Kİ, MÜZAKİRƏLƏR FORMAL OLMASIN"

Əməkdar müəllim, Amonaşvili Humanist Pedaqogika Akademiyasının professoru Asif Cahangirov hesab edir ki, ən vacibi bu müzakirələrin real əhəmiyyətinin olmasıdır: "Əsas odur ki, müzakirələr formal olmasın. İctimai müzakirələr peşəkarlığı ilə seçilən müəllimlərin əksəriyyətini, valideynləri, QHT nümayəndələrini, hətta üzdə olan repetitorları əhatə etməlidir. Müzakirələrdə tənqidi fikirlərin söylənilməsinə daha çox yer ayrılmalı, hər bir rəy nazirlik, müvafiq agentliklər, Təhsil İnstitutunda ciddi şəkildə araşdırılmalıdır".

Yazıçı-naşir Şəmil Sadiq bildirdi ki, illərdir dərsliklər nəşrdən əvvəl ictimai müzakirəyə çıxarılır: "Sadəcə, bu dəfə görünür,
















prosesin PR tərəfi daha düzgün qurulub və ictimaiyyətə açıq şəkildə çatdırılır ki, belə bir imkan var - buyurun, rəy bildirin! Əgər müzakirə doğrudan da məqsədli aparılarsa, səslənən rəylər nəzərə alınsa, bu, dərsliklərin keyfiyyətinin artmasına xidmət edə bilər. Lakin problem ondadır ki, müzakirəyə buraxılan dərsliklərlə bağlı real və sistemli ictimai rəy formalaşmır. Əmin olun, rəylərin əksəriyyəti status səviyyəsindən o yana keçməyəcək. Biz müəllimlər oturub ciddi, əsaslandırılmış tənqid yazmırıq, fikir bildirmirik. Amma dərslik çap olunandan sonra, hansısa evdə və ya sinifdə bir problem ortaya çıxanda birdən-birə hamımız deyirik ki, "dərsliklər bərbaddır".

Ş.Sadiqin fikrincə, burada həm subyektiv, həm də obyektiv məqamlar var və bu səbəbdən məsələni birdəfəlik həll etmək mümkün deyil: "Məsələn, bir dərslikdə Səməd Vurğunun "Azərbaycan" şeiri verilibsə, mən tənqid edib deyə bilərəm ki, niyə Əhməd Cavadın "Azərbaycan" şeiri verilməyib? Tutaq ki, müəllif bu tənqidlə razılaşar və dəyişiklik edər. Amma dərslik çap olunduqdan sonra başqa müəllimlər deyəcəklər ki, Səməd Vurğunun "Azərbaycan" şeiri ilə Əhməd Cavadın "Azərbaycan" şeiri arasında poetik baxımdan ciddi fərqlər var və bu dəyişiklik yanlışdır. Deməli, bu sahədə heç vaxt "tam və qəti" bir həll mümkün deyil".

Naşir hesab edir ki, cəmiyyətimiz bu cür məsələlərə laqeyd yanaşdığı müddətcə problemlər davam edəcək: "Müəllimlərimiz və məktəblərimiz Elm və Təhsil Nazirliyinin bu açıq və demokratik yanaşmasına peşəkar cavab verməlidirlər. "Nazirlik nə deyirsə, düzdür" yanaşması bizi irəli aparmaz".

## İRADLAR DAHA ÇOX HUMANİTAR DƏRSLİKLƏRLƏ BAĞLIDIR

Dərsliklərin qiymətləndirilməsi üzrə ekspert, tarix müəllimi Səxavət Zeynalov hesab edir ki, dərsliklərlə bağlı haqlı iradlar olduğu kimi, haqsız iradlar da çoxdur: "Mən xarici dərsliklərlə də işləyirəm. Orda da dəyişikliklər, yeniləmələr olur. İstənilən dərslikdə qüsur tapmaq istəsələr, taparlar. Nazirlik də indi dərslikləri ictimaiyyətin qarşısına qoyur ki, fikir bildirsinlər. Təbii ki, haqlı iradlar da var. Məsələn, cümləni bəzən çox qəliz veririk. Əslində cümlə uşağın daha yaxşı anlayacağı şəkildə olmalıdır".

S.Zeynalov ictimaiyyəti prosesdə fəal olmağa çağırır: "Müzakirə vaxtı heç kim layihəyə münasibət bildirmir. Dərslik çap olunur, dərs vaxtı uşaqlar müəyyən səhvləri tapıb deyirlər və valideynlər də başlayırlar irad bildirməyə".

Dərslik müəllifi Pərviz Ağalarovun fikrincə, ictimai rəy dərsliklərin təkmilləşməsinə təsir edir: "Biz rəyləri, qeydləri, təklifləri, iradları nəzərə alıb düzəlişlər edirik. Fərdi qaydada da müraciət edəndə biz onlara baxırıq. İradlar daha çox Azərbaycan dili, ədəbiyyat və tarix dərslikləri ilə bağlı olur. Dəqiq elmlərlə bağlı fikirlər söyləyənlər isə olduqca azdır Amma məncə, tarix dərsliklərimizdə elə ciddi qüsurlar yoxdur".

GƏLİR VƏ XƏRCLƏRİMİZİ BALANSLAŞDIRMAQ ÜÇÜN HANSI PRİNSİPLƏRƏ ƏSASLANMALIYIQ?

# 2026-CI İLİN MALİYYƏ SINAĞINDAN NECƏ KEÇMƏLİ?

Bu il ailə büdcəsi, gündəlik xərclər və qənaət planları ciddi sınaqdan keçəcək. Ekspertlər bildirirlər ki, qiymət artımı və bazarlarda qeyri-sabitlik fonunda gəlir və xərcləri balanslaşdırmaq, qənaət etmək və fövqəladə hallar üçün ehtiyat yaratmaq vacibdir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

2026-cı ilin dünyada iqtisadi baxımdan çətin il olacağı proqnozlaşdırılır. Ekspertlər qiymətlərin artacağını, bazarlarda qeyri-sabitliyin davam edəcəyini və inflyasiyanın təsirinin hiss olunacağını bildirirlər. Bu isə vətəndaşlar üçün maliyyə qeyri-müəyyənliyi deməkdir. Belə ki, ailə büdcəsi, gündəlik xərclər və qənaət planları bu şəraitdə ciddi sınaqdan keçəcək. Maraqlıdır, əgər bu proqnozlar özünü doğruldarsa, gəlir və xərclərimizi necə balanslaşdırmalıyıq? Belə bir şəraitdə qənaəti hansı prinsiplər üzərində qurmaq daha doğru olar?

## "EMOSİONAL İSTƏKLƏR MİNİMUMA ENDİRİLMƏLİDİR"

Xərclər üzrə konsultant Ruzanna Başirova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, gündəlik maliyyəni qorumağın praktik yolları yalnız planlı yanaşma ilə mümkündür. Onun sözlərinə görə, qida, kommunal, əyləncə və alış-veriş daxil olmaqla bütün xərclərdə qənaət vacibdir: "Ayaqüstü və küçə qidalarından uzaqlaşmaq, sağlam qidalanmaq təkcə büdcəyə deyil, həm də orqanizmə xeyirdir. Qeyri-sağlam qidalanmanın xərci yalnız həmin qidalara verilən pulla bitmir, sonradan yarada biləcəyi fəsadları aradan qaldırmaq üçün də əlavə xərc tələb olunur. Kommunal xərclər tam nəzarətdə olmasa da, qənaət həm şəxsi büdcəyə, həm də ölkə və dünya iqtisadiyyatına, eləcə də ekologiyaya faydalıdır. Məsələn, diş fırçalayarkən suyu bağlamaq kimi sadə addımlar hər kəsin edə biləcəyi qənaət nümunələridir.

Əyləncə ona görə vacibdir ki, gərgin fiziki və zehni işdən sonra dincələ bilək. Lakin normadan artıq olduqda bu, istirahətdən çox yorğunluq yaradır və büdcəyə mənfi təsir göstərir. Ay ərzində bir konsert və ya teatr tamaşası, bir-iki tədbir və ya ad günü kifayət edir. Alış-veriş xərclərini nizamlamaq üçün isə ehtiyac siyahısı hazırlanmalı, yalnız həqiqətən lazım olan məhsullar alınmalı, emosional istəklər minimuma endirilməli, bəziləri isə tamamilə siyahıdan çıxarılmalıdır. Emosional xərclər büdcəyə ən çox təsir edən, lakin ciddi fayda verməyən xərclərdir".



Ruzanna Başirova

## AĞILLI ALIŞ PRİNSİPLƏRİ

Ruzanna Başirova vurğulayır ki, market alış-verişində və gündəlik xərclərdə diqqətli davranmaq büdcənin qorunmasında mühüm rol oynayır: "Saxta endirimlərə aldanmayın, ehtiyac olmadığı halda sadəcə xoşunuza gəldiyi üçün məhsul almayın. Kassada növbə gözləyərkən, marketin impulsiv satış hiyləsi kimi kassanın yanına düzülmüş məhsullardan almağa tələsməyin. Kiçik görünən bu xərclər ay sonunda ciddi yük yarada bilər. Qiymət artımı və inflyasiya şəraitində alış-verişi səmərəli etmək üçün "ağıllı alış" prinsiplərinə əməl edin. Müxtəlif marketlərdə eyni məhsulların qiymətləri fərqli olur. Məsələn, bəzi marketlərdə ərzaq məhsulları daha ucuz, digərlərində isə təmizlik vasitələri daha münasib olur. Buna görə də bütün alış-verişi eyni marketdən etmək əvəzinə, siyahıya əsasən fərqli marketlərdən alış-veriş edin. Büdcə planlaması mütləq olmalıdır. Plansızlıq xaos yaradır. Xaotik ortamda isə proseslər sistemsiz və nizamsız cərəyan edir və vəziyyət daha da ağırlaşır".




## EHTİYACLAR, İSTƏKLƏR VƏ ARZULAR

Maliyyə planlama tətbiqi "Origin"in təsisçisi Matt Vatson böhran dövrünə hazırlaşmağın ilk addımının mövcud vəziyyəti qiymətləndirmək olduğunu bildirir: "Büdcənizə və kart xərclərinizə baxın və hər ay nə qədər xərclədiyinizi bilin. Nə qədər çox lazımsız xərci azaltsanız, fövqəladə hallara daha çox pul yığa bilərsiniz. Seçiminiz ya indi, ya da sonra qənaət etmək olmalıdır. İndi qənaət etmək həm daha asandır, həm də gözlənilməz xərclərə qarşı ehtiyat yaradır".

Maliyyə planlama şirkətinin təsisçisi Cim Veil isə xərcləri üç kateqoriyaya ayırmağı tövsiyə edir: ehtiyaclar, istəklər və arzular. O deyir ki, böyük arzular adətən yüksək xərclərlə bağlıdır və təxirə salına bilər, məsələn, uzun səyahət. Hazırda bu kateqoriyadakı xərcləri azaltmaq və maliyyənizin stabilləşməsini gözləmək daha məqsədəuyğundur.



## "YÜKSƏK FAİZLİ BORCLARI ÖNCƏ ÖDƏYİN"

İstehlakçı müdafiəçisi Courtney Alev isə böhran dövründə psixoloji sağlamlığın qorunmasının vacibliyini qeyd edir: "Qiymət artımı və iş itkiləri barədə xəbərlər stress yarada bilər. Maliyyənizi qoruyarkən psixoloji sağlamlığınıza da diqqət yetirin. Xəbərlərdən xəbərdar olmaq yaxşıdır, amma onların sizi idarə etməsinə imkan verməyin. Əgər maliyyənizlə bağlı yüksək stress və narahatlıq hiss edirsinizsə, maliyyə terapevti kimi mütəxəssislərlə əlaqə saxlayın. Ölkə iqtisadiyyatını düşünmək əvəzinə, öz şəxsi həyatınızdakı idarə edə biləcəyiniz sahələrə fokuslanın ki, böhran olsa belə, daha inamlı olasınız".

O, həmçinin fövqəladə qənaət fondunun vacibliyini vurğulayır: "Kiçik də olsa, bu fonda pul yığmaq əhəmiyyətli fərq yarada bilər. İdeal olaraq, fond 3-6 aylıq xərclərə bərabər olmalıdır. Borclarınız varsa, kredit kartı, tələbə krediti və s. qənaət fondu yaradaraq, eyni anda borcları da idarə etmək üçün prioritet müəyyənləşdirin. Borcları qısa, orta və uzun müddətli olaraq ayırın. Yüksək faizli borcları (məsələn, kredit kartı) öncə ödəyin. Tələbə krediti və ipoteka kimi uzunmüddətli borcları daha yavaş ödəyərək, qənaət fondu yaratmağa fokuslanın".

# ADUA ÜZRƏ SEYSMİK TƏDQİQAT APARILACAQ

**"Əşrəfi-Dan Ulduzu-Aypara" müqavilə sahəsində seysmik tədqiqatla bağlı görüləcək işlərin vaxtı və həcmi dəqiqləşdirilib. Tədqiqatın 2026-cı ilin mart-aprel ayları arasında aparılması planlaşdırılır.**




"Əşrəfi-Dan Ulduzu-Aypara" (ADUA) müqavilə sahəsində 2D yüksək dəqiqlikli (HR) seysmik tədqiqatın aparılması planlaşdırılır. "Report" xəbər verir ki, bunu BP şirkətinin seysmik tədqiqat qrupunun nümayəndəsi Pərviz Əlizadə "Əşrəfi-Dan Ulduzu-Aypara" layihəsi üzrə seysmik tədqiqat proqramına aid ictimaiyyət üçün onlayn görüşdə bildirib.

**"TƏDQİQAT QISAMÜDDƏTLİ OLACAQ"**

Onun sözlərinə görə, ADUA müqavilə sahəsində 2D yüksək dəqiqlikli (HR) seysmik tədqiqatın aparılması planlaşdırılır: "Tədqiqat qısamüddətli olacaq (20 günədək davam edəcəyi gözlənilir) və ADUA müqavilə sahəsinin şimal-qərb hissəsində yerləşən kiçik bir tədqiqat ərazisini əhatə edəcək. Tədqiqatın 2026-cı ilin mart-aprel ayları arasında aparılması planlaşdırılır. Tədqiqatın məqsədi, gələcək kəşfiyyat quyularının planlaşdırılmasına dəstək məqsədilə təxminən 1500 metr dərinliyədək yeraltı qatlar haqqında ətraflı məlumatın əldə edilməsi, o cümlədən yeraltı qırılmalar, dayaz qatlara yığılmış qazlar və digər geoloji xüsusiyyətlər də daxil olmaqla, qazma əməliyyatları və quyu bütövlüyünə təsir göstərə biləcək yeraltı geoloji risklərin müəyyənləşdirilməsi nəzərdə tutulur".

**"TƏDQİQAT GƏMİSİ YERLİ BAZADAN MOBİLİZASİYA EDİLƏCƏK"**

P. Əlizadə əlavə edib ki, tədqiqat sahəsində suyun dərinliyi təqribən 20-40 metr arasındadır: "Enerji mənbəyi kimi vahid 4x40 kub düymlük pnevmotoplar qrupundan istifadə olunacaq (247 dB re 1μPa @ 1m). Sərt hidrofon komponentli strimer - 600 metr uzunluğunda olacaq. Tədqiqat zamanı həmçinin SSS, MBES, maqnitometr və SBP avadanlıqlarından istifadə ediləcək. Yalnız bir gəmidən istifadə olunacaq: "Caspian Provider". Tədqiqat gəmisi mövcud yerli dəniz bazasından mobilizasiya ediləcək".



## ANLAŞMA MEMORANDUMU İMZALANIB

Xatırladaq ki, 2024-cü ilin sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağı və "Əşrəfi-Dan Ulduzu-Aypara" (ADUA) sahəsinə dair Anlaşma Memorandumu imzalanıb.

Birinci blok Bakıdan 120 km şərqdə, "Günəşli" yatağından 20-25 km məsafədə, suyun 150-200 metr dərinliyində yerləşən "Qarabağ" neft yatağıdır. Yatağın işlənməsi üzrə 2018-ci ildə imzalanmış və Milli Məclis tərəfindən ratifikasiya olunmuş mövcud Risk Xidməti Sazişi (RXS) var. Hazırda SOCAR RXS-də 100% iştirak payına malikdir.

İkinci blok Bakıdan 90-110 km şimal-şərqdə, suyun 80-180 metr dərinliklərində yerləşən "Əşrəfi-Dan Ulduzu-Aypara" (ADUA) sahəsidir. Bu sahə bir sıra mövcud kəşf olunmuş və perspektiv strukturları əhatə edir. ADUA sahəsinə aid kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü üzrə 2018-ci ildə imzalanmış və Milli Məclis tərəfindən ratifikasiya olunmuş mövcud saziş (HPBS) var. Hazırda SOCAR həmin HPBS-də iştirak payının 100%-nə malikdir.



# Genişzolaqlı internetin orta sürəti artıb

Ötən ilin dekabr ayında Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə (88,83 Mbps) görə noyabr ayına nisbətən 1 pillə geriləyərək 156 ölkə arasında 86-cı olub. "Report" "Speedtest Global Index"ə istinadən xəbər verir ki, bir il əvvəlki göstərici (69,15 Mbps) ilə müqayisədə ölkədə sabit genişzolaqlı internetin orta sürəti 28,5 % artıb.

Azərbaycan bu göstərici ilə Türkiyə (72,17 Mbps), İran (21,33 Mbps), Gürcüstan (44,55 Mbps), Ermənistan (80,27 Mbps), Qazaxıstan (85,71 Mbps), Qırğızıstanı (85,40 Mbps) və Tacikistanı (38,40 Mbps) geridə qoyub. Sabit genişzolaqlı internetin sürətinə görə ötən ay birinci yeri Sinqapur (410,06 Mbps), axırıncı yeri isə Kuba (3,82 Mbps) tutub.

Azərbaycan dekabrda mobil internetin sürətinə görə isə noyabr ayına nisbətən 1 pillə geriləyərək 87,92 Mbps sürətlə 105 ölkə arasında 53-cü olub. Mobil internetin sürətinə görə birinci yeri Birləşmiş Ərəb Əmirlikləri (691,76 Mbps), sonuncu yeri isə Əfqanıstan (14,87 Mbps) tutub.

Hesabat ayında Bakı şəhərinin sabit genişzolaqlı internetin sürətinə görə mövqeyi əvvəlki aya nisbətən 1 pillə geriləyərək 199 şəhər arasında 88,14 Mbps sürətlə 116-cı yerdə qərarlaşıb. Şəhərlərin sabit genişzolaqlı internet üzrə reytinqinə Əbu-Dabi (420,37 Mbps) şəhəri başçılıq edib. Sonuncu pillədə Hələb (2,94 Mbps) qərarlaşıb.

Azərbaycan paytaxtı ötən ay mobil internetin sürətinə görə isə əvvəlki aya nisbətən 1 pillə irəliləyərək 106,70 Mbps sürətlə 155 şəhər arasında 80-ci olub. Şəhərlər arasında mobil internetin sürətinə görə birinci yeri Əbu-Dabi (835,57 Mbps), sonuncu yeri La Pas (Boliviya) (12,25 Mbps) tutub.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 87
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

AYAQQABI İSTEHSALININ ƏSAS PROBLEMLƏRİNDƏN BİRİ XAMMAL ASILILIĞIDIR

# YERLİ AYAQQABI İSTEHSALINDA STATİSTİK ARTIM

Yerli ayaqqabı istehsalında kiçik də olsa artım müşahidə edilir. Ekspertlər bu artımın daha çox dövlət sifarişləri hesabına əldə olunduğu qənaətindədirlər. Belə ki, hazırda bazarda Azərbaycan istehsalı olan güclü ayaqqabı brendi mövcud deyil.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda ayaqqabı istehsalı iki faizdən çox artıb. Belə ki, 2025-ci ilin yanvar-noyabr aylarında ölkədə 936 min cüt ayaqqabı istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 2,3% çoxdur. Ötən ilin dekabr ayının 1-nə ölkədə 147 min cüt hazır məhsul ehtiyatı olub. Maraqlıdır, Azərbaycanda ayaqqabı istehsalının inkişafı üçün hansı maneələr mövcuddur və istehsal həcmini daha da artırmaq perspektivi varmı?

### "DİGƏR MÜHÜM PROBLEM RƏQABƏT QABİLİYYƏTİDİR"

Azərbaycan Pərakəndə Geyim İdxalçıları Assosiasiyasının idarə heyətinin üzvü Elxan Mərdanlı deyir ki, mövcud statistik artımı pərakəndə bazarın real tələbi ilə əlaqələndirmək düzgün olmaz: "Hesab edirəm ki, qeyd olunan istehsal artımı əsasən tikinti sektorunda çalışan işçilər üçün istehsal olunan qoruyucu ayaqqabılar, eləcə də müxtəlif qurumlar üçün sifariş edilən uniforma tipli ayaqqabılar hesabına formalaşıb. Hazırda bazarda Azərbaycan istehsalı olan, geniş pərakəndə satış şəbəkəsində təmsil olunan güclü ayaqqabı brendi mövcud deyil. Burada fərdi ustalar və sifariş əsasında çalışan kiçik istehsalçılar nəzərdə tutulmur. Onlar hər zaman bazarda olub və bu statistikanın əsas drayveri deyillər. Yəni söhbət kütləvi istehlak bazarı üçün formalaşmış yerli brendlərdən getmir".

Sahənin çətinliklərinə gəldikdə isə, E.Mərdanlı bildirir ki, ayaqqabı istehsalının əsas problemlərindən biri xammal asılılığıdır. Dəri, altlıq, aksesuarlar və digər əsas komponentlərin böyük hissəsi ölkə xaricindən idxal olunur və bu zaman gömrük rüsumları, logistika xərcləri istehsalın maya dəyərini ciddi şəkildə artırır: "Digər mühüm problem isə rəqabət qabiliyyətidir. Ayaqqabı istehsalında ixtisaslaşmış ölkələrdə istehsal həcmi çox böyükdür və bu da məhsulun vahid qiymətini aşağı salır. Yerli istehsalçı bu qiymətlərlə rəqabət apara bilmədiyi üçün bazar avtomatik olaraq idxala yönəlir. Perspektiv yalnız o halda mümkündür ki, istehsalçıya maliyyə baxımından nəfəs almaq imkanı verilsin və daxili bazarla məhdudlaşmadan, ixraca yönəlmiş model qurulsun".



2025-ci il yanvar-noyabr ayaqqabı istehsalı
936 min cüt

### "SAHİBKARA QAZANC ƏLDƏ ETMƏK İMKANI YARADILMALIDIR"

Assosiasiya üzvü bildirir ki, yerli ayaqqabı istehsalı müəyyən qədər gücləndə də, idxalı üstələməsi real görünmür: "Qlobal miqyasda onilliklərdir mövcud olan və böyük istehsal gücünə malik brendlərlə açıq rəqabət aparmaq mümkün deyil. Bu sahənin inkişafı üçün istehsal mütləq şəkildə vergi və fiskal güzəştlərlə qorunmalıdır. Sahibkara qazanc əldə etmək imkanı yaradılmalıdır ki, o, yalnız daxili bazarla kifayətlənməsin, yeni bazarlar axtarsın və ixraca fokuslansın. Mövcud beynəlxalq brendlərin surətinin istehsalı isə həm etik, həm də qanunvericilik baxımından mümkün deyil. Buna görə də inkişaf yolu yalnız orijinal, niş və ixrac yönümlü istehsaldan keçir. İki faizlik artımı ciddi istehsal artımı kimi qiymətləndirmək düzgün olmaz. Azərbaycanda ayaqqabı istehsalı faktiki olaraq çox zəif səviyyədədir və idxal bazarı hələ də tam dominant mövqedədir".

Həmsöhbətimiz vurğuladı ki, bu sahədə effektiv nəticə üçün ayaqqabı istehsalında istifadə olunan xammal gömrük rüsumundan tam azad edilməlidir: "Yerli istehsal olan ayaqqabıların satışı ƏDV-dən azad edilməli və ya minimum ödənilən verginin 50%-i geri qaytarılmalıdır. İxrac yönümlü istehsalçılar üçün ayrıca təşviq paketləri tətbiq edilməlidir. Yerli istehsalçıların beynəlxalq sərgi və bazarlara çıxışı dövlət tərəfindən dəstəklənməlidir. Yalnız bu halda yerli istehsal real iqtisadi subyektə çevrilə və idxaldan asılılığı mərhələli şəkildə azalda bilər".

### "AYAQQABI SƏNAYESİ MƏRHƏLƏLİ İNKİŞAF YOLUNDADIR"

Ağdam Sənaye Parkında yerləşən "BAFCO İnvest" MMC-nin ayaqqabı istehsalı fabrikindən "Kaspi" qəzetinə bildirildi ki, bu artımı müsbət və vacib bir siqnal kimi qiymətləndirirlər: "Rəqəm böyük görünməsə də, real sektor üçün bu, istehsalın sabitləşməsi və bazarın tədricən formalaşdığını göstərir. Xüsusilə son illərdə xammal, logistika və maliyyə xərclərinin artdığı bir dövrdə yerli istehsalda müsbət dinamikanın qorunması əhəmiyyətlidir. Bu göstəriciləri daha çox ümumi sənaye tendensiyası kimi dəyərləndiririk. Statistik artım bütün istehsalçılar üçün eyni templə hiss olunmur. Bizim üçün əsas olan göstərici yalnız ümumi statistika deyil, konkret sifarişlərin və uzunmüddətli əməkdaşlıqların artmasıdır. Bu artım onu göstərir ki, Azərbaycan ayaqqabı sənayesi mərhələli şəkildə inkişaf yolundadır".

### "BU AMİLLƏR İSTEHSALIN ÇEVİK OLMASINI MÜƏYYƏN DƏRƏCƏDƏ MƏHDUDLAŞDIRIR"

Qurumun məlumatına görə, son illərdə yerli ayaqqabı brendlərinə maraq artıb: "Xüsusilə sənaye və təhlükəsizlik ayaqqabısı seqmentində alıcılar artıq yalnız qiymətə deyil, keyfiyyətə, mənşəyə və davamlı təchizata diqqət yetirirlər. Alıcılıq qabiliyyəti bazar seqmentindən asılı olaraq dəyişir, lakin korporativ müştərilər və dövlət sifarişləri çərçivəsində yerli istehsala maraq sabitdir və artmaqdadır. Həmçinin onu da qeyd etmək istərdik ki, istehsal etdiyimiz ayaqqabılara ölkə xaricində də böyük maraq var".

Sahənin inkişafına mane olan problemlərə gəldikdə isə, bildirildi ki, əsas çətinliklər sırasında xammalın bir hissəsinin idxaldan asılı olması, bəzi texniki komponentlərin və ehtiyat hissələrinin xaricdən gətirilməsidir: "Bu amillər istehsalın daha sürətli və çevik olmasını müəyyən dərəcədə məhdudlaşdırır. İstehsal prosesində istənilən sənaye müəssisəsində olduğu kimi, müəyyən məsələlər yarana bilər. Lakin bizim üçün əsas prinsip bu məsələlərin vaxtında və sistemli şəkildə həll edilməsidir. Proseslərimiz elə qurulub ki, xammalın tədarükü, avadanlığın istismarı və insan resursları ilə bağlı yaranan situasiyalara çevik reaksiya verək. Bu baxımdan Ağdam Sənaye Parkının rezidenti olmaq bizim üçün mühüm üstünlüklər yaradır. Park çərçivəsində təqdim olunan güzəştlər, inkişaf etmiş infrastruktur, eləcə də logistika və kommunal təminatın stabil olması istehsal prosesinin fasiləsiz və səmərəli təşkili üçün əlverişli şərait yaradır. Nəticə etibarilə, qarşılaşdığımız çətinliklər istehsalın dayanıqlığına təsir göstərmir və biz onları inkişaf üçün əlavə təcrübə kimi dəyərləndiririk".



Elxan Mərdanlı

# AQRAR SAHƏ ÜÇÜN YOL XƏRİTƏSİ

**Aqrar sahədə iqlim riskləri, xəstəliklər və resurs israfı fonunda süni intellekt modulları əsas ümidlərdən biri kimi təqdim olunur. Lakin ekspertlər texnologiya ilə yanaşı, kadr hazırlığı və institusional islahatların da vacibliyini vurğulayırlar.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda 2026-cı ildə kənd təsərrüfatında həm bitkiçilik, həm heyvandarlıq problemlərinin aradan qaldırılmasına yönələn 16-dan artıq modul hazırlanacaq. Bunu Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Süni İntellekt layihəsinin rəhbəri Surxay Novruzov Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin perspektivləri" mövzusunda elmi-praktik konfransda bildirib.

## MODULLARIN ƏSAS FUNKSİONAL İSTİQAMƏTLƏRİ

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, Azərbaycanda 2026-cı ildə istifadəyə verilməsi planlaşdırılan kənd təsərrüfatı üzrə süni intellekt modulları sektorun həm bitkiçilik, həm də heyvandarlıq sahəsində illərdir mövcud olan əsas problemlərin aradan qaldırılmasını hədəfləyir: "Kənd Təsərrüfatı Nazirliyinin "McKinsey and Company" ilə birgə hazırladığı yol xəritəsi çərçivəsində formalaşdırılan bu modullar bitki xəstəliklərinin vaxtında aşkarlanması, məhsuldarlığın dəqiq proqnozlaşdırılması, əkin sahələrinin dəqiq xəritələndirilməsi və iqlim məlumatlarının analitik təhlili kimi mühüm istiqamətləri əhatə etməklə yanaşı, daha geniş funksional imkanlara malik olmalıdır. Xüsusilə torpaq münbitliyinin monitorinqi, aqrokimyəvi balansın təhlili, suvarma sistemlərinin optimallaşdırılması, gübrə və pestisid istifadəsinin dəqiq planlaşdırılması, zərərvericilərin yayılma riskinin proqnozu, aqrotexniki tədbirlərin vaxtının avtomatik təyin edilməsi, məhsul itkisinin səbəblərinin analizi və kənd təsərrüfatı texnikasının texniki vəziyyətinin izlənməsi kimi sahələr də modulların əsas komponentləri kimi nəzərdə tutulmalıdır. Heyvandarlıq üzrə isə süni intellekt əsasən heyvan sağlamlığının erkən diaqnostikasına, xəstəliklərin yayılma ehtimalının proqnozlaşdırılmasına, yem rasionunun optimallaşdırılmasına, reproduksiya göstəricilərinin izlənməsinə və təsərrüfat idarəetməsinin rəqəmsallaşdırılmasına fokuslanmalıdır".

## ƏSAS ÇƏTİNLİKLƏR

N.Əzizli bildirdi ki, hazırda bitkiçilik sahəsində iqlim dəyişmələrinin yaratdığı məhsuldarlıq dalğalanmaları, su çatışmazlığı, torpaqların deqradasiyası, xəstəlik və zərərvericilərin artması, yanlış gübrələmə və suvarma nəticəsində məhsul itkiləri kimi ciddi problemlər mövcuddur: "Heyvandarlıqda isə yem bazasının səmərəsiz idarə olunması, xəstəliklərin gec aşkarlanması, aşağı məhsuldarlıq, genetik potensialdan tam istifadə olunmaması və təsərrüfatlarda idarəetmə proseslərinin köhnə metodlarla aparılması əsas çətinliklərdir. Süni intellekt modulları bu problemlərin çoxunu azaldacaq real potensiala malikdir. Çünki böyük məlumat kütləsini eyni anda analiz edərək ən optimal qərar təklifləri verir, xəstəlikləri erkən müəyyənləşdirir, resurs sərfini minimuma endirir və fermerlər üçün riskləri proqnozlaşdırır. Bununla belə, bu modulların tam effektiv işləməsi üçün sahələrdən keyfiyyətli məlumat toplanması, sensor və dron şəbəkələrinin genişləndirilməsi, rəqəmsal bacarıqların artırılması və təsərrüfatların texnoloji yeniliklərə sürətli adaptasiyası da vacibdir. Bütün bu komponentlər bir-birini tamamladıqda, hazırlanacaq 30-dan artıq modul kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi, itkilərin azaldılması və idarəetmənin müasir standartlara uyğunlaşdırılması istiqamətində ölkə üçün əhəmiyyətli dönüş yarada bilər".



Nahid Əzizli

Ruslan Atakişiyev

## "Aqrotexniki qulluğun səviyyəsi yenilənməlidir"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisad üzrə fəlsəfə doktoru Ruslan Atakişiyev isə düşünür ki, modulların yaradılmasına səbəb resurslardan düzgün istifadə olunması istəyidir: "Yəni məqsəd odur ki, bir hektar ərazidən daha çox məhsul əldə olunsun. Yaxud su resursları səmərəli istifadə edilsin. Bunun üçün də intensiv inkişafı daha da sürətləndirmək və yeni texnologiyalar tətbiq etmək tələb olunur. Son dövrlər kənd təsərrüfatının inkişafında süni intellektin rolu böyükdür. İqlim proqnozlaşması çox önəmli məsələdir. Çünki iqlim dəyişikliyinə ən çox məruz qalan aqrar sahədir. Daşqınların, müxtəlif tektonik hadisələrin rolu artır. Zərərvericilər də iqlimlə əlaqəlidir. Bu da bitkiçiliyin inkişafına mane olur. Aqrotexniki qulluğun səviyyəsi də yenilənməlidir".

## "Dərmansız adi göyərti də yetişdirmək olmur"

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, heyvandarlığa və bitkiçiliyə mane olan səbəblərdən biri xəstəliklərdir: "Xəstəliklərlə mübarizə aparmalıyıq. Bitkiçilik və heyvandarlıqda olan xəstəliklərin aradan qaldırılmasına çalışmalıyıq. Çünki yeni növ xəstəliklər ortaya çıxır. Dərmansız adi göyərti də yetişdirmək olmur. Bu da məhsulun maya dəyərinə təsir edir. Dərmanlarla yetişən məhsullar insanlarda da xəstəliklərə gətirib çıxarır. İqlim məlumatlandırılması bitkiçilikdə əsas hissələrdən biridir. Çünki məhsulların qiyməti iqlimdən asılıdır. Bu sahəyə müasir texnologiyalar cəlb edilməlidir. Suvarma sistemlərindəki problemləri həll etməliyik. Rəqabətli mühit yaradılmalıdır. Əgər bunları həll etsək, nəticə əldə edə bilərik".



Rauf Qarayev

R.Qarayev kənd təsərrüfatında həll edilməli olan digər problemlərə də toxundu: "Kənd təsərrüfatı sahəsində mütəxəssis çatışmazlığı mövcuddur. Kadrların inkişaf etməsi üçün şərait yaradılmalıdır. Kənd təsərrüfatı sahəsində ixtisaslaşan institutlar inkişaf etdirilməlidir. Müasir texnologiyalara keçid müşahidə edilmir. Kənd təsərrüfatı sahəsində nə qədər yeniliklər edilməyə çalışsaq da, nəticə zəifdir. Modullardan əlavə araşdırılmalıdır ki, niyə özümüz nəticə əldə edə bilmirik, xarici şirkətlərə ehtiyac duyuruq".

# BİRMƏNALI QARŞILANMAYAN QADAĞA

Tibb bacılarının evdə inyeksiya vurması qadağan edilib. Bu qərardan sonra yüzlərlə tibb bacısı artıq evlərdə tibbi müdaxilədən imtina edib, binalarda divara vurulan tibb bacısı elanları isə yığışdırılıb.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son günlər Azərbaycanda tibb bacılarının evdə inyeksiya vurmasına qoyulan qadağa cəmiyyətdə müzakirələrə səbəb olub. TƏBİB-in açıqlamasına görə, venadaxili inyeksiya və digər tibbi prosedurlar yalnız rəsmi tibb məntəqələrində və həkim nəzarəti altında həyata keçirilməlidir. Məqsəd pasiyent təhlükəsizliyini təmin etmək olsa da, yataq xəstələri, hərəkət qabiliyyəti məhdud şəxslər və ambulator müalicə alan xəstələr üçün bu qadağa praktik problemlər yaradır.

### "SƏHİYYƏ MÜƏSSİSƏLƏRİNDƏ MÜMKÜNDÜR"

TƏBİB-dən "Kaspi" qəzetinə verilən məlumata görə, tibb bacılarının ev şəraitində inyeksiya və digər invaziv tibbi müdaxilələri həyata keçirməsi ilə bağlı məhdudiyyətlər səhiyyə sahəsində mövcud olan ümumi normativ-hüquqi çərçivədən irəli gəlir: "Əsas məqsəd ev şəraitində tibbi müdaxilələr zamanı yarana biləcək risklərin - xüsusilə anafilaktik şok, kəskin allergik reaksiyalar, infeksiya və digər ağırlaşmaların qarşısının alınması, həmçinin pasiyent təhlükəsizliyinin təmin edilməsidir. Ambulator xəstələr üçün inyeksiyalar yalnız həkim tərəfindən verilmiş rəsmi tibbi təyinat əsasında həyata keçirilə bilər. Bu prosedurlar dövlət və ya özəl səhiyyə müəssisələrində – poliklinikalarda, ailə sağlamlıq mərkəzlərində, ambulator-prosedur otaqlarında, kənd həkim məntəqələrində və digər uyğun tibbi strukturlarda icra olunur. İnyeksiyanın icrası müvafiq ixtisaslı orta tibb işçiləri (tibb bacısı, feldşer) tərəfindən, müəyyən edilmiş tibbi standartlara, sanitariya-gigiyena və təhlükəsizlik qaydalarına uyğun şəkildə həyata keçirilir. Tibbi praktikada inyeksiya prosedurları zamanı aseptika, antiseptika və pasiyentin ümumi vəziyyətinin qiymətləndirilməsi vacib şərtlər hesab olunur. Bu tələblərin tam təmin edilməsi isə səhiyyə müəssisələrində mümkündür".

### "BURADA SƏHİYYƏ İNFRASTRUKTURUNUN SƏVİYYƏSİ BƏRABƏR DEYİL"

"Region və kənd yerlərində bu qərarın icrası üçün mövcud infrastruktur kifayət edirmi?" sualına gəldikdə, qurumdan bildirildi ki, regionlar və xüsusilə kənd yerləri üzrə səhiyyə infrastrukturunun səviyyəsi bərabər deyil: "Bəzi yaşayış məntəqələrində prosedur otaqlarının, ambulator mərkəzlərin və ya tibb məntəqələrinin əlçatanlığı məhdud ola bilər. Bu isə praktiki baxımdan əlavə çətinliklər yaradır".

TƏBİB-dən bildirildi ki, tibbi baxımdan hərəkət qabiliyyəti məhdud və xroniki xəstələrdə belə invaziv müdaxilələrin ev şəraitində icrası xüsusi risk qiymətləndirilməsi aparılmadan məqsədəuyğun hesab edilmir.

### "TİBB BACISININ EVDƏ XİDMƏT GÖSTƏRMƏSİ ZƏRURİDİR"

Adının açıqlanmasını istəməyən, 30 illik iş təcrübəsi olan tibb bacısı bildirir ki, TƏBİB-in bu qərarına mütləq düzəlişlər olmalıdır: "Bəziləri yataq xəstəsidir və iynə üçün xəstəxanaya getməsi praktiki olaraq mümkün deyil. İnsanlar hər inyeksiya üçün xəstəxanaya üz tutmalıdırlar? Xəstəxana bu qədər insanı qarşılaya biləcəkmi? Bəzi xəstələr lift olmadan, çətinliklə hərəkət edirlər. O xəstələr gündə iki dəfə necə tibb müəssisəsinə gedə bilərlər? Bu baxımdan, tibb bacısının evə gedib xidmət göstərməsi həm praktik, həm də zəruridir".

Həmsöhbətimiz deyir ki, əgər tibb bacısı savadlı, sertifikatlıdırsa və dövlət xəstəxanasında işləyirsə, müəyyən protokollar əsasında evdə xidmət göstərə bilər: "Təcrübəmdə elə xəstələr olub ki, əməliyyatdan sonra inyeksiyaları gecə saat 3-də lazım olurdu. Xəstəxanada tibb bacısı var, amma xəstə evə yazıldıqda həmin inyeksiyanı kim vuracaq? Əgər yaxınlıqda sertifikatlı tibb bacısı varsa, niyə ona xidmət göstərməyə icazə verilməsin? Əməliyyat olunmuş xəstə gecə saat 3-də yenidən xəstəxanaya getməlidir?"

### "MƏQSƏD PASİYENT TƏHLÜKƏSİZLİYİNİ QORUMAQDIR"

Millət vəkili Müşfiq Məmmədli "Kaspi"yə açıqlamasında bildirdi ki, qadağanın mahiyyəti ev şəraitində qeyri-rəsmi tibbi müdaxilələrin riskli olması ilə bağlıdır: "Evdə tibb bacısı xidmətinə qoyulan qadağanın əsas səbəbləri arasında sterillik və infeksiya riski, anafilaktik şok kimi ciddi fəsadlar zamanı təcili yardım imkanının olmaması və tibbi sənədləşmənin qeyri-müəyyənliyi göstərilir. Yəni məqsəd cəzalandırmaq deyil, pasiyent təhlükəsizliyini qorumaqdır".

Cəzalandırma mexanizminə gəldikdə isə, millət vəkili vurğulayır ki, hazırda açıq mənbələrdə "evdə iynə vurduğuna görə konkret cərimə" tətbiqi barədə mexanizm yoxdur. Praktikada belə hallar "Lisenziyasız tibbi fəaliyyət" və ya "Sanitar-epidemioloji qaydaların pozulması" maddələri çərçivəsində qiymətləndirilə bilər ki, xəbərdarlıqdan cərimyə qədər dəyişir.

### "ƏN BÖYÜK PROBLEM KƏND VƏ QƏSƏBƏLƏRDƏDİR"

M.Məmmədli bildirir ki, bu qərarla bağlı ən böyük problem bəzi kənd və qəsəbələrdə tibb məntəqəsinin olmamasıdır: "Olan yerlərdə isə iş saatları məhduddur. Yataq xəstələri, yaşlılar, əlillər üçün ora getmək faktiki mümkün deyil. Bu reallıqda "evə tibb bacısı gəlməsin" demək alternativ təqdim olunmadan sosial gərginlik yaradır. Qadağa ilə yanaşı alternativ mexanizmlər qurulmalıdır. Məsələn, ailə sağlamlıq mərkəzləri və poliklinikalar yanında evdə xidmət qrupları yaradılmalıdır. Tibb bacısı qurum adından və qeydiyyatla getməlidir. Həkim arayışı olan pasiyentlər üçün evdə inyeksiya istisna hal kimi qanuniləşdirilməlidir. "103" və ya "TƏBİB xətti" üzərindən planlı (təcili olmayan) evdə sistem vurma xidməti fəaliyyət göstərməlidir".

### "BU MÜDAXİLƏLƏR KLİNİK ŞƏRAİTDƏ İCRA OLUNMALIDIR"

Sosial ekspert İlqar Hüseynli deyir ki, dünyada bu cür müdaxilələr yalnız rəsmi, protokollu və klinik şəraitdə icra olunur: "Məsələn, Almaniyada xüsusi təlim keçmiş tibb bacıları tam təchiz olunmuş nəqliyyat vasitələri ilə kənd və ucqar bölgələrdə belə xidmət göstərirlər. Azərbaycanda isə mərkəzləşdirilmiş belə sistemlər olmadığından evdə inyeksiya ciddi tibbi risk daşıyır".



Müşfiq Məmmədli

İlqar Hüseynli



# ZƏRGƏRLİK BAZARINDA YENİ TENDENSİYA

İsveçrə qızılı yüksək saflığı və beynəlxalq sertifikatlaşdırma standartlarına uyğunluğu ilə tanınır. Türkiyə və BƏƏ qızılı dizayn müxtəlifliyi və zərgərlik məmulatlarının geniş çeşidi ilə seçilir. İtaliya qızılı isə incə işlənməsi, zərif dizaynı və premium seqmentdə tanınması ilə fərqlənir.

SEVİNC ABBASOVA

Azərbaycanda qızıl bazarı uzun illərdir həm investisiya, həm də zərgərlik sektorunda mühüm rol oynayır. Statistik məlumatlara əsasən, 2025-ci ilin yanvar-oktyabr aylarında ölkəyə 4,5 milyard ABŞ dolları dəyərində 44,4 ton qızıl idxal olunub. Eyni dövrdə ölkədə yalnız 2,6 ton qızıl istehsal edilib. Bu rəqəmlər göstərir ki, daxili istehsal idxaldan xeyli geri qalır və bazar əsasən xarici məhsullara yönəlmiş vəziyyətdədir. Bu isə bir sıra vacib sualları gündəmə gətirir: Azərbaycanda hansı ölkələrin qızılına böyük tələbat var? Ölkələrin qızılları hansı özünəməxsus xüsusiyyətləri ilə fərqlənir? İdxalı azaltmaq imkanlarımız varmı? Yerli zərgərlərin məhsuldarlığı necədir, onların məhsullarına tələbat varmı?

### İDXALDA LİDER ÖLKƏLƏR

"Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırma üzrə Texniki Komitənin sədri Rövşən Əmircanov bildirir ki, idxal statistikasına əsasən, Azərbaycana qızıl Rusiya, Türkiyə, İsveçrə, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İtaliya və Qazaxıstan kimi ölkələrdən gətirilir: "Bu ölkələr qızıl hasilatı, emalı və ticarəti sahəsində dünya bazarında əhəmiyyətli mövqeyə malikdir. Xüsusilə İsveçrə və Böyük Britaniyadan idxal olunan qızıl əsasən bank külçələri və investisiya məqsədli məhsullar kimi istifadə olunur. Türkiyə və İtaliya qızılı daha çox zərgərlik sənayesi üçün nəzərdə tutulur. Rusiya və Qazaxıstan isə Azərbaycana əsasən xammal və yarımemal qızıl tədarük edən ölkələr sırasında yer alır".

### ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏR

Ekspertin sözlərinə görə, qızılın mənşə ölkəsi onun keyfiyyət göstəricilərinə, emal texnologiyasına və istifadə sahəsinə birbaşa təsir göstərir: "Məsələn, İsveçrə qızılı yüksək saflığı (99,99%) və beynəlxalq sertifikatlaşdırma standartlarına uyğunluğu ilə tanınır. Bu səbəbdən İsveçrə külçələri əsasən maliyyə qurumları və investisiya məqsədli alıcılar üçün cəlbedici hesab olunur. Türkiyə və BƏƏ qızılı dizayn müxtəlifliyi və zərgərlik məmulatlarının geniş çeşidi ilə seçilir. Bu ölkələrdən Azərbaycana əsasən hazır zərgərlik məmulatları idxal edilir. Region ölkələrində olduğu kimi, Azərbaycanda da türk və ərəb istehsalı olan zinət əşyalarına tələbat yüksəkdir. Satışda olan zərgərlik məhsullarının təxminən 3 faizi brend məmulatlardan ibarətdir ki, onlar da əsasən İtaliya və İspaniya mənşəlidir. Xüsusilə İtaliya qızılı incə işlənməsi, zərif dizaynı və premium seqmentdə tanınması ilə fərqlənir. BƏƏ qızılı qlobal ticarət mərkəzi funksiyasını daşıyır və qiymət baxımından rəqabət qabiliyyətli hesab olunur".





Rövşən Əmircanov

### DAXİLİ İSTEHSAL YETƏRLİ DEYİL

Rövşən Əmircanov onu da vurğulayır ki, idxaldan asılılığın müəyyən qədər azaldılması mümkündür: "Qızıl idxalını qısa müddətdə tam şəkildə azaltmaq real görünmür. Bunun əsas səbəbi qızılın eyni zamanda investisiya aləti, zərgərlik xammalı və strateji ehtiyat kimi çoxşaxəli funksiyaya malik olmasıdır. Bununla belə, idxaldan asılılığın müəyyən qədər azaldılması mümkündür. İlk növbədə, daxili qızıl hasilatının artırılması vacib amillərdən biridir. Hazırda Azərbaycanda qızıl hasilatı həyata keçirilsə də, mövcud həcmlər daxili tələbatı tam ödəmək üçün yetərli deyil. Digər tərəfdən, yerli emal və zərgərlik sənayesinin inkişafı idxal olunan hazır məmulatların həcmini azaltmağa imkan verir. Bundan əlavə, alternativ investisiya alətlərinin genişləndirilməsi və maliyyə bazarlarının dərinləşdirilməsi qızıla olan tələbatı müəyyən qədər zəiflədə bilər. Lakin mövcud şəraitdə qızıl idxalı Azərbaycanın iqtisadi və maliyyə sisteminin təbii və zəruri tərkib hissəsi olaraq qalmaqdadır".

## MİLLİ ORNAMENTLİ MƏHSULLARA TƏLƏBAT YÜKSƏKDİR

Mütəxəssis yerli zərgərlik sənayesinin mövcud vəziyyətinə toxunaraq deyir ki, Azərbaycanda zərgərlik sənəti nəsildən-nəslə ötürülən, milli-mədəni dəyərlərlə sıx bağlı sahədir: "Yerli zərgərlər həm ənənəni qoruyur, həm də müasir dizayn trendlərinə uyğun məhsullar təqdim edirlər. Milli ornamentli və fərdi sifarişlə hazırlanmış məhsullar geniş tələb görür, zərgərlər müasir avadanlıq və kompüter dizayn proqramlarından istifadə edərək məhsulların keyfiyyətini və vizual cəlbediciliyini artırırlar. Müştərinin istəklərinə çevik yanaşma isə yerli istehsalın üstünlüyünü daha da artırır".

Rövşən Əmircanov qeyd edir ki, son illərdə yerli zərgərlik məhsullarına maraq artır, idxal məhsullarının payı isə tədricən azalır. Bu tendensiya Azərbaycanın zərgərlik sektorunun öz potensialını gücləndirməyə başladığını göstərir və gələcəkdə yerli məhsulların bazarda daha da üstünlük qazanacağını göstərir.

### YERLİ MƏHSULLAR BAZARDA ÜSTÜNLÜK TƏŞKİL EDİR

Azərbaycan Zərgərlər Assosiasiyasının İdarə Heyətinin sədri Toğrul Abbasquliyev bildirir ki, COVID-19 pandemiyasından əvvəl Azərbaycan zərgərlik bazarının təxminən 70 faizi idxal məhsullarına əsaslanırdı. "Pandemiya dövründə logistika problemləri və qapanmalar müəyyən dəyişikliklər yaratdı və yerli zərgərlik sənayesi üçün yeni imkanlar açdı. Həmin dövrdə həm vergi, həm də gömrük güzəştləri tətbiq olundu və yerli istehsal gücləndi. Hazırda bazarın təxminən 60 faizi Azərbaycan istehsalı olan zərgərlik məmulatlarından ibarətdir", – deyə ekspert vurğulayır. Onun sözlərinə görə, qızılın qiymətinin artması, dünya miqyasında müharibələr və iqtisadi böhranlar həm xam qızıl, həm də hazır zərgərlik məmulatlarına tələbi artırır: "Azərbaycan həm xam qızıl ixrac edir, həm də idxal həyata keçirir. Çünki qiymət sürətlə artır və qızıl investorlar üçün cəlbedici alət hesab olunur".

### BAZARIN İNKİŞAFI LƏNGİYƏ BİLƏR

Mütəxəssis qızıl idxalını azaltmağı məqsədəuyğun saymır. Onun fikrincə, bu addım bazarda mənfi tendensiyalar formalaşdıra bilər: "Çünki idxal olunan ölkələrdə zərgərlik sənayesi yüksək səviyyədədir. Bu məhsullar yerli istehsal üçün rəqabət yaradır və daha fərqli dizaynların, yeni kolleksiyaların ərsəyə gəlməsini təmin edir. Yerli sənayeni stimullaşdırmaq vacibdir, lakin istehlakçının seçim imkanını məhdudlaşdırmaq doğru deyil".



Toğrul Abbasquliyev

# UŞAQ VAR Kİ, SƏKKİZİNCİ SİNİFDƏ OXUYUR, AMMA DİLİ BİLMİR








Torontodakı Azərbaycan dili siniflərinin rəhbəri Yeganə Cəfərova: "Uşaqları dil səviyyələrinə görə bölürük. Uşaqların əksəriyyəti Kanadada doğulub. Onlar Azərbaycanın dilini, atributlarını, bu gününü, tarixini bu məktəbdə öyrənirlər".

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kanadanın Toronto şəhərində yaşayan həmyerlilərimiz üçün doğma bir ünvan var - "Azərbaycan dili sinifləri" (Azerbaijani Classes in Toronto). Toronto Təhsil Mərkəzinin Xarici dillər bölməsində yer alan dillər sırasında Ana dilimiz də tədris olunur.

Məktəb 2006-cı ilin sentyabrında Azərbaycan Qadınlarına Dəstək Mərkəzinin təşəbbüsü ilə yaradılıb. Azərbaycan dili siniflərinin rəhbəri və baş müəllimi Yeganə Cəfərova gələn il 20 yaşı qeyd ediləcək məktəbin fəaliyyəti uğrunda daim mübarizə aparır.

Azərbaycan dili siniflərinə övladlarını qeydiyyatdan keçirən valideynlər də xoşbəxtdirlər: "Uşaqlarımız bu məktəbdə Ana dilimizi sevərək öyrənirlər. Tariximiz, mədəniyyətimiz haqqında bilgilər əldə edir, adət-ənənəmizə yiyələnirlər. Tarixi günlərdə, milli bayramlarda burada müxtəlif tədbirlər keçirilir. Övladlarımız öz aralarında Azərbaycan dilində danışır, milli ruhda böyüyürlər. Biz Azərbaycandan uzaqda yaşasaq da, burada bir Azərbaycan yaşadırıq".

### 20 YAŞLI MƏKTƏB

**Yeganə xanım, bir neçə il əvvəl Bakıda redaksiyamızda qonaq olarkən, "Bir gün Torontoda görüşərik" demişdim. Qismət oldu, rəhbərlik etdiyiniz məktəbin fəaliyyəti ilə Torontoda tanış olmaq imkanı yarandı...**

Kanadaya gəldiyim ilk illərdən burada adi məktəblər də, xarici dillər sinifləri də var. Kanada çoxmillətli ölkə olduğu üçün burada müxtəlif dillərdə dərslər tədris olunur ki, həmin dillərdən biri də Azərbaycan dilidir. Yaratdığımız məktəbin gələn il 20 yaşı tamam olur. Bu məktəbi yaradanda maneələr vardı. Həmişə də məktəbimiz uğrunda mübarizə aparırıq. Bu yayda dilimiz siyahıdan çıxarılmışdı. Valideynlər yay dərsləri üçün uşaqlarını qeydiyyatdan keçirməkdən ötrü axtaranda tapa bilmirdilər. Dərhal müraciət elədik. "Səhv olub" dedilər. Kanadada hər bir xalq öz adət-ənənəsini və dilini qoruyub saxlayır. Biz də bunun uğrunda çalışırıq.

### "MƏDƏNİYYƏTİMİZİ, TARİXİMİZİ, ADƏT-ƏNƏNƏLƏRİMİZİ DƏ ÖYRƏDİRİK"

**Məktəbin hazırkı fəaliyyəti necədir?**

Məktəb sentyabrın 20-dən sonra fəaliyyətə başlayıb. Hər altıncı gün dərsimiz keçirilir. Artıq 50-ə yaxın şagirdimiz var. Bir sinfin açılması üçün 25 şagird olmalıdır. Hazırda iki sinfimiz fəaliyyət göstərir. Müraciətlər çox olduğundan, üçüncü sinfimizi açmaq üzərində düşünürük. Məktəbdə oxumaq istəyən uşaqlar hər il qeydiyyatdan keçməlidirlər. Çünki dərslər Toronto Şəhər Təhsil Mərkəzinin məktəblərində keçirilir. Azərbaycan dili rəsmi olaraq mərkəzin Xarici dillər bölməsində tədris olunur. Bunun üçün uşaq məktəbə hazırlığa gedən uşaq bizim sinfə yazıla bilir. 1-8-ci sinif şagirdləri bu siniflərdə oxuyurlar. Üçüncü sinfə qədər Gülnar Nəsirovanın, 3-dən 8-ci sinfə qədər mənim sinfimdə oxuyurlar. Uşaqlara sırf Azərbaycan dili tədris olunur. Bununla yanaşı, mədəniyyətimizi, tariximizi, adət-ənənələrimizi də öyrədirik. Yuxarı siniflərdə oxuyanlar Azərbaycan, Qarabağ haqqında layihələr hazırlayırlar. Onlar təhsil aldıqları məktəblərdə də bu layihələri nümayiş etdirirlər. Uşaqları dil səviyyələrinə görə bölürük. Elə uşaq var ki, səkkizinci sinifdə oxuyur, amma dili bilmir. Onun üçün sıfırdan başlamalısan. Uşaqların əksəriyyəti Kanadada doğulub. Onlar Azərbaycanın dilini, atributlarını, bu gününü, tarixini bu məktəbdə öyrənirlər. Bakıdan gələndə Azərbaycanın xəritəsini gətirmişəm. Uşaqlar hansı rayonun harada yerləşdiyini artıq bilirlər. Qarabağ haqqında məlumatlıdırlar. Məqsədimiz odur ki, uşaqlar dilimizi, adət-ənənələrimizi yaşatsınlar, öz millətimizdən özlərinə dost seçsinlər, xoşagəlməz çevrəyə düşməsinlər. Müəllimlərimizdən Mikayıl Bəylər, Qəmər Peyğəmbəri, Ramin Şadrup da uşaqlarla ürəklə məşğul olurlar.





### "TƏKİ VALİDEYNLƏR İSTƏSİN"

**Valideynlər uşaqlarını məktəbə yazdırmağa maraqlıdırlarmı?**

Biz yayda dərsimiz olmayanda da bir yerə yığışırıq. Valideynlər bir-birləri ilə ünsiyyət qururlar. Uşaq öz dilində danışmırsa, öz mənsub olduğu mühitdə böyümürsə, bu, balaca balığın okeanda böyük balıqlara yem olması kimidir. Sonra uşaq başqa səmtlərə yönəlir. Çünki o, öz söy kökündən kənarda qalır, dilimizi unudur. Azərbaycana gedəndə uşaq getmək istəmir, mən o dili, mədəniyyəti bilmirəm deyir. Biz valideynlərlə bir yerdə olanda bir-birimizlə mənəvi bağ qururuq. Valideyndən də çox şey asılıdır. Mən həmişə deyirəm ki, lap 15 sinif də aça bilərik, təki valideynlər istəsin.

**Uşaqlara əsasən hansı məşğələlər keçirilir?**

Məktəbdəki dərsdən sonra icmaya gəlirik. Burada tamaşalar səhnələşdirilir, milli rəqslər, mahnı və şeirlər öyrədilir, gitara dərsləri keçilir. Keçən il Məhəmməd Füzulinin "Meyvələrin söhbəti"ni səhnələşdirdik. Başqa ölkələr də bizi dəvət edir. Yayda Makedoniyaya dəvət almışdıq. Türk Cocuq festivallarında iştirak edirik. Hər il festivalda Azərbaycan çadırı qurur, öz ölkəmizin mədəniyyətini, tarixini nümayiş etdiririk. Biz uşaqlara "Bizim davamçılarımız olacaqsınız" deyəndə sevinirlər.

### "HEÇ OLMASA DƏRSLİKLƏR VERİLSƏYDİ..."

**Məktəbin fəaliyyətinə Toronto Təhsil Mərkəzinin dəstəyi varmı?**

Mərkəzin rəsmi saytında xarici dillər bölməsində "Azərbaycan dili" əlavə olunub. Pandemiya dövründə Azərbaycan əlifbasını məktəbə daxil etdirdik. Əgər Xocalı soyqırımı günü şənbə gününə düşərsə, uşaqlar da, müəllimlər də məktəbə gəlmirlər.

**Dərslikləri necə əldə edirsiniz?**

Azərbaycan dili ilə bağlı dərslikləri Azərbaycandan gətirirəm. Dərslikləri kitabxanalara da mən vermişəm. Şagirdlərə təhsil mərkəzi tərəfindən dərs ləvazimatları da verilir. Bakıda olarkən dərsliklərlə bağlı dəfələrlə təhsil idarəsinə, Diasporla İş üzrə Dövlət Komitəsinə də müraciət etmişik. Amma komitədən bizə bildirildi ki, sinfi onlar açmadığından kömək edə bilməyəcəklər.

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
17 YANVAR ŞƏNBƏ 2026
www.kaspi.az

“Real Madrid”də əvvəllər də bir çox məşqçini “yeyən” sistem bu dəfə daha prinsipial, daha modern bir məşqçini sıradan çıxardı. Komandanın futbolçuları sosial şəbəkələrdə onları tərk etmiş baş məşqçiyə təşəkkür edə bilərlər, amma bu həqiqəti dəyişmir: Bernabeuda hələ də məşqçilər yox, futbolçular qərar verir.

# “ŞƏRƏF DƏHLİZİ”NDƏN ÇIXIŞ QAPISINA




Xabi Alonso “Real Madrid”dən ayrılarkən arxasında uğursuzluqdan daha çox, cavabsız suallar qoydu. Bu sualların mərkəzində isə təkcə taktika, nəticə və ya seçimlər deyil, “Santyaqo Bernabeu”da real gücün kimə məxsus olması dayanır. Son superkubok finalının ardınca yaşanan bir epizod Alonsonun Madrid macərasını tam şəkildə izah edirdi: məşqçi qalib “Barselona” üçün “şərəf dəhlizi” qurulmasını istəyir, Kilian Mbappe isə buna veto qoyur. Digər futbolçular da ulduz oyunçunun ardınca gedir, məşqçi də. Bu, “Real Madrid”in daxili iyerarxiyasının açıq nümayişi idi.

### ÜMİDLƏ BAŞLANAN YOL

Alonsonun təyinatı “Real Madrid” camiəsində həyəcan yaratmışdı. Klopdan sonra “Liverpul”, Ançelottidən sonra “Real” - iki nəhəngdən birinin “Bayer”dən (Leverkuzen) sonra onun yeni ünvanı olacağı gözlənilirdi. Madrid zamanlamanı düzgün qurdu, Ançelottini göndərdi və dəyişiklik etdi. İlk açıqlamalar, “La Desima” (10-cu Çempionlar Liqası kuboku – red.) fonunda çəkilən təqdimat videosu, “Madridismo”ya vurğu - hamısı müsbət siqnallar idi.

Azarkeşlər Ançelottinin son dönəmində komanda ilə emosional bağını qismən itirmişdi. “Barselona” daxili arenada çox üstün idi, Avropada isə Madrid artıq qorxulu komanda təsiri bağış-lamırdı.

Alonso bu durğunluğu qırmaq üçün gəlmişdi.

### REALLIĞIN DƏRKİ

Təyinatdan sonra elə ilk həftələrdə problemlər üzə çıxdı. ABŞ-də keçirilən Klublararası Dünya Çempionatı Alonso üçün faktiki olaraq “keçid mərhələsi” oldu. Yorğun heyət, Mbappesiz oyunlar, Vinisiusun formada olmaması, Rodriqonun kənarda qalması və Trent Alexander-Arnoldun uğursuz startı yeni dövrün başlanğıcını ləngitdi.

PSJ-yə ağır məğlubiyyətdən sonra Alonso özü də etiraf etdi ki, bu, hələ onun komandası deyil. Amma zaman keçdikcə problemin təkcə vaxt olmadığı üzə çıxdı.

## Taktika var idi, itaət yox

Alonsonun oynatmaq istədiyi futbol aydın idi. O, mövqe oyunu, pressinq, ümumi struktura sadiqlik kimi elementlərə fokuslanmışdı. Mbappe mərkəzə çəkildi, Arda Gülerə daha çox etimad göstərildi. Amma Modriçsiz və Krossun keyfiyyəti əvəzi olmadan orta xətt daim boşluqlar buraxdı. Nizamlı komandalar, xüsusilə “Mançester Siti” və “Liverpul” Madridin zəif nöqtələrini asanlıqla tapdı. Alonso Leverkuzendəki 3-4-2-1 sistemini Madridə uyğunlaşdıra bilmədi. Burada nə cinah müdafiəçiləri, nə də iki “10 nömrə” konsepti işlək idi. Vinisiusun arxa plana düşməsi, Rodriqonun az şans qazanması komanda daxilində balansın pozulmasına səbəb olmuşdu. Üstəlik komandanın yeni müdafiə sisteminə uyğunlaşa bilməməsi arxa xətdə çoxlu boşluqların verilməsi ilə nəticələnirdi.

## Soyunub-geyinmə otağında məğlubiyyət

Alonso üçün əsas zərbə isə taktiki yox, psixoloji idi. Oktyabrda “Barselona”ya qarşı “El-Klasiko”da Vinisiusun əvəzlənmə epizodu və buna açıq narazılığı, baş məşqçi dəyişməyəcəyi təqdirdə yeni müqavilə danışıqlarını dayandıracağı ilə bağlı xəbərlər vəziyyəti daha gərginləşdirdi. Alonso braziliyalıya azadlıq vermirdi. Mbappe isə onun əsas dayağına çevrilmişdi.

Bu, daxili cəbhəni ikiyə böldü. Mbappe meydanda qollarını sıralayır, Vinisius isə rəhbərliyin dəstəyini hiss edirdi. Bellinqhem və Rodriqo ətrafında da narazılıqlar artırdı.

“Barselona”ya qarşı superkubok finalı hər şeyi yekunlaşdırdı. “Real Madrid” üçün bəlkə də ən az əhəmiyyətli kubok idi, amma simvolik mənası böyük oldu. Bu məğlubiyyətdən sonra Alonso üçün Madriddə heç bir yol qalmadı.

## Burada məşqçi olmaq kifayət etmir

Xabi prinsipial məşqçidir. Komanda ruhu, kollektiv məsuliyyət, futbol etikası onun fəlsəfəsinin əsasını təşkil edir. Lakin “Real Madrid” artıq klassik mənada futbol komandası deyil. Bu, hər biri özünü klubdan üstün görən qlobal brendlərin bir araya gəldiyi nəhəng platformadır. 2026-cı ilin reallığında Kilian Mbappe, Vinisius Junior və Cud Bellinqhem təkcə futbolçu yox, sistemin özüdür. Belə bir mühitdə məşqçi ideya verə bilər, amma hökm etməsi çətindir. Xüsusilə, Xabi Alonso kimi məşqçilikdə hələ kövrək addımlarını atan mütəxəssis üçün. Alonso Leverkuzenlə Avropa futboluna nümunə göstəriləcək iş ortaya qoymuşdu. Məhdud büdcə, balanslı heyət, aydın oyun modeli onun uğurunun əsas elementləri idi. Xabi taktiki baxımdan dövrün ən savadlı məşqçilərindən biri olduğunu sübut etmişdi. Lakin Madriddə vəziyyət başqadır. Burada məşqçi olmaq kifayət etmir, avtoritet olmaq lazımdır. Alonso isə heç vaxt diktator olmadı, ya da bunu istəmədi.



## Sistemi dəyişmək mümkün olacaqmı?

“Real Madrid”də əvvəllər də bir çox məşqçini “yeyən” sistem bu dəfə daha prinsipial, daha modern bir məşqçini sıradan çıxardı. “Real Madrid” futbolçuları sosial şəbəkələrdə təşəkkür edə bilər, amma həqiqət dəyişmir: Bernabeuda hələ də məşqçilər yox, futbolçular qərar verir. Alonso üçün yeni komanda tapmaq çətin olmamalıdır. Lakin “Real”a gələcək yeni baş məşqçi üçün çətin tapşırıq var: bu qədər ulduz futbolçu ilə həqiqi komanda yaratmaq mümkündürmü?

Nəticələr baxımından mövsümün itirildiyini demək olmaz. Komanda La Liqada 19 oyunda 45 xal toplayıb və lider “Barselona”dan 4 xal geri qalır. Çempionlar Liqasında isə madridlilər 12 xalla ilk “8-lik”dədir. Nəticələri düzəltmək olar, amma sistemi dəyişmək mümkün olacaqmı?

